# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycanın iqtisadi gücü və milli birliyimiz!



4

№ 153 (7321)

SƏS

27 avqust 2025-ci il.
Qiymәti 60 qәpik

## Leyla Əliyeva Mehriban Əliyevanın doğum günü münasibətilə ailəvi foto paylaşıb



Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Instagram" hesabında Azərbaycanın Birinci vitse-prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyevanı doğum günü münasibətilə ailəvi foto paylaşıb.

## Azərbaycana böyük iqtisadi dividendlər gətirən elit yarışma - Formula 1

Dövlət başçısının Sərəncamı ilə ölkəmizə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilib



7

## Diplomatiya tariximizin yeni şanlı səhifəsi



2

## Yay tətilinin uşaqlar üçün faydaları və mənfi cəhətləri



9

## Zəngəzur kimindir?



11

## Çin dünyada ən böyük günəş elektrik stansiyasını tikir



16

## Ukrayna yığmasının Azərbaycana qarşı keçirəcəyi oyun üçün heyəti




16

# Diplomatiya tariximizin yeni şanlı səhifəsi

## *Nazirlər Kabinetində xüsusi iclas keçirilib*



**Bu gün Nazirlər Kabinetində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tarixi Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclası keçirilib. İclası giriş nitqi ilə açan Baş nazir Əli Əsədov Azərbaycan Prezidentinin bütün dünyanın diqqət mərkəzində olan triumfal Vaşinqton səfərinin ölkəmizin beynəlxalq siyasi arenada nüfuzunu və mövqeyini daha da gücləndirməklə yanaşı, regionda uzunmüddətli sülhün təmin olunması istiqamətində yeni perspektivlər açdığını bildirib. Azərbaycanın diplomatiya tarixinə qızıl hərflərlə yazılan 8 avqust Zəfərinin Prezident İlham Əliyevin güclü liderliyinin, qətiyyətinin və prinsipiallığının məntiqi nəticəsi olduğu vurğulanıb.**

Vaşinqtonda keçirilmiş görüşlərin və imzalanmış sənədlərin əhəmiyyəti barədə bəhs edən Baş nazir səfərin bir tərəfdən Azərbaycan-ABŞ əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, digər tərəfdən isə Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülhün təmin edilməsi istiqamətində mühüm addımların atılması ilə əlamətdar olduğunu diqqətə çatdırıb. "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" (TRIPP) ilə bağlı əldə edilmiş razılığın əhəmiyyəti vurğulanaraq, layihənin Azərbaycan Respublikasının əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin etməklə yanaşı, regionda nəqliyyat əlaqələrinin inkişafına, ticari-iqtisadi əməkdaşlığın genişləndirilməsinə təkan verəcəyi diqqətə çatdırılıb. Bununla əlaqədar olaraq, müvafiq tapşırıqların icrası üçün hökumət tərəfindən gündəlik əsasda işin həyata keçirilməsinin zəruriliyi qeyd edilib.

"Prezident İlham Əliyevin bütün dünyanın diqqət mərkəzində olan triumfal Vaşinqton səfəri Azərbaycanın beynəlxalq siyasi arenada nüfuzunu və mövqeyini daha da gücləndirməklə yanaşı, regionda uzunmüddətli sülhün təmin olunması istiqamətində



yeni perspektivlər açır". Baş nazir Əli Əsədov əlavə edib ki, Prezident İlham Əliyevin dünyanın ən qüdrətli dövlətinin paytaxtı Vaşinqtonda, Ağ Evdə Prezident Donald Tramp tərəfindən böyük hörmət və ehtiramla ən ali səviyyədə qarşılanması, dövlət başçımıza göstərilən xüsusi rəğbət, səmimiyyət və yüksək qonaqpərvərlik, ABŞ dövlət başçısının Ağ evin rəmzi açarını Azərbaycanın dövlət başçısına təqdim etməsi Amerika Prezidenti tərəfindən Prezident İlham Əliyevin şəxsiyyətinə və liderliyinə xüsusi münasibətin parlaq ifadəsidir.

Ə.Əsədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Ordumuzun döyüş meydanında qazandığı zəfərlər və Azərbaycanın təşəbbüskarı olduğu sülh Vaşinqtonda, ABŞ prezidentinin iştirakı və imzası ilə rəsmiləşdirildi: "Bu nailiyyətlər Azərbaycan Prezidentinin güclü liderliyinin, yorulmaz səylərinin, sarsılmaz polad iradəsinin, qətiyyətinin və prinsipiallığının, parlaq diplomatik məharətinin, böyük uzaqgörənliyinin və müdrik qərarlarının məntiqi nəticəsidir. Onların əsasında Qarabağımızın və işğala məruz qalmış bütün torpaqlarımızın azad olunması və mütləq suverenliyimizin təmin edilməsi ilə yaranan yeni geosiyasi reallıqlar, eyni zamanda beynəlxalq aləmdə Azərbaycanın nüfuzunun möhkəmlənməsi dayanır".

Baş nazir vurğulayıb ki, postmüharibə dövründə Azərbaycanın xarici siyasəti davamlı sülhün təmin olunmasını, dövlət sərhədlərinin qarşılıqlı tanınmasını və kommunikasiya xətlərinin açılmasını əsas prioritet kimi irəli sürür: "Bu baxımdan Vaşinqtonda imzalanan sənədlər xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan bir tərəfdən Ermənistanla uzunmüddətli sülhün əsasını qoyur, digər tərəfdən isə ABŞ ilə strateji tərəfdaşlığını yeni mərhələyə yüksəldir. Bu isə təkcə ikitərəfli münasibətlərin möhkəmlənməsi deyil, həm də regionun qlobal iqtisadi və nəqliyyat xəritəsində Azərbaycanın rolunun daha da artması deməkdir".

Vaşinqtonda Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə keçirilən üçtərəfli sammitin yekununda imzalanmış Birgə Bəyannamənin Azərbaycanın irəli sürdüyü və uzun illər ərzində təşviq etdiyi sül-



hün beynəlxalq səviyyədə geniş dəstək qazandığını və rəsmən qəbul olunduğunu nümayiş etdirir, deyən Baş nazir bildirib ki, birgə Bəyannamə çox əhatəli bir sənəd olmaqla təkcə iki ölkənin uzun illər davam edən silahlı qarşıdurmasına son qoyan sənəd deyil, həm də Azərbaycan xalqının tarixi ədalət uğrunda mübarizəsinin nəticəsi, dövlətimizin siyasi-diplomatik gücünün və beynəlxalq nüfuzunun ifadəsidir: "İllərdən



bəri kağız üzərində qalmış BMT qətnamələrini özü həyata keçirmiş, haqq-ədaləti hərb yolu ilə, şəhidlərinin qanı hesabına bərpa etmiş Azərbaycan Ermənistanla sülh müqaviləsinin müəllifi kimi çıxış edərək, münaqişənin siyasi müstəvidə də nöqtəsini qoydu. Birgə Bəyannamədə yer alan mühüm müddəalardan biri regionda nəqliyyat-kommunikasiya xətlərinin açılması ilə bağlıdır. Vətən müharibəsindən sonra Prezident İlham Əliyev dəfələrlə qətiyyətlə bəyan etmişdir ki, Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidi təmin edilməlidir. Bütün çətinliklərə, fikir ayrılıqlarına və müxtəlif mövqelərə baxmayaraq Azərbaycan Prezidentinin bu tələbi də Ermənistan tərəfindən qəbul edildi.

Ə.Əsədov bəyan edib ki, Vaşinqtonda imzalanmış sənəd açıq şəkildə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz və etibarlı əlaqənin təmin olunmasının vacibliyini ifadə edir: "Xüsusilə yeni dəhlizin açılması üzrə razılaşma Naxçıvan Muxtar Respublikasının blokadadan çıxmasını təmin etməklə və onun sosial-iqtisadi inkişafına xüsusi təkan verməklə yanaşı, eyni zamanda regional nəqliyyat və iqtisadi inteqrasiyanın əsasını qoyur. Dəhlizin açılması Azərbaycan Hökuməti qarşısında yeni və məsuliyyətli bir çağırışdır. Bu məqsədlə ilkin mərhələdə gündəlik əsasda gərgin iş aparılmalıdır".

Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanması ilə bağlı zəruri işlərə başlanıldığını deyən Baş nazir qeyd edib ki, uğurla icra olunan Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, müasir infrastruktur formalaşdırılır, dayanıqlı məskunlaşma və iqtisadi reinteqrasiya üçün zəruri şərait yaradılır: "Prezident İlham Əliyev Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə bu illər ərzində azad edilmiş torpaqlarımızı addım-addım, qarış-qarış gəzərək möhtəşəm quruculuq işlərinə bilavasitə başçılıq edirlər. Son zamanlar Azərbaycana səfər edən dövlət və hökumət başçıları bir qayda olaraq işğaldan azad edilmiş ərazilərimizə də səfər edir və Prezident İlham Əliyevin apardığı genişmiqyaslı işləri böyük heyranlıq hissi ilə qeyd edirlər".

Prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunan xüsusi iclasda çıxışı zamanı baş nazirin müavini Şahin Mustafayev deyib ki, bu hadisə Azərbaycanın yüksəlişinin və artan nüfuzunun nəticəsidir: "Prezidentin Vaşinqton səfəri Azərbaycanın etibarlı strateji tərəfdaş statusunun dünya miqyasında qəbul olunduğunu sübut edir. Azərbaycan və Ermənistan arasında birgə bəyənnamənin imzalanması ölkəmizin tarixinə yazılmış hadisədir. Bu sənəd Prezident İlham Əliyevin starateji düşünmə və uzaqgörən siyasətinin nəticəsidir. Regionda kommunikasiyaların açılması ilə bağlı razılaşmalar böyük əhəmiyyət kəsb edir. İmzalanmış sənədə əsasən, tərəflər Azərbaycan və Ermənistan arasında bölgədaxili və beynəlxalq kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiqləyiblər".

**Ardı Səh. 3**

# Diplomatiya tariximizin yeni şanlı səhifəsi

*Nazirlər Kabinetində xüsusi iclas keçirilib*

Əvvəli Səh. 2

Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolundan danışan Ş.Mustafayev bildirib ki, işlərin 95 %-i icra olunub. O, qeyd edib ki, Azərbaycan nəqliyyat potensialını reallaşdırmaq üçün bir sıra infrastruktur layihələri həyata keçirib: "Ölkəmiz hazırda bu istiqamətdə yeni layihələr həyata keçirir. Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bu strategiyanın əsas sütunlarındandır. 110 kilometrlik Horadiz-Ağbənd dəmir yolu xəttinin 76 kilometri tamamlanıb. Horadiz-Cəbrayıl-Zəngi-



lan-Ağbənd avtomobil yolunun da inşası davam etdirilir".

Zəngəzur dəhlizi ilə bağlı fikirlərini söyləyən Baş nazirin müavini deyib ki, razılaşmaların əhəmiyyətli hissələrindən biri də Azərbaycanın Naxçıvan Muxtar Respublikası (MR) ilə maneəsiz hərəkətinin təmin edilməsinin nəzərdə tutulmasıdır: "Bu razılaşma Naxçıvanın Azərbaycanın digər bölgələri ilə daha sıx inteqrasiyasına xidmət edəcək. Avropa və Asiya arasında mühüm nəqliyyat vasitəsi olan Zəngəzurdan keçən yol iqtisadi əlaqələrin genişlənməsinə imkan verəcək".

Sonra çıxış edən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov vurğulayıb ki, Azərbaycan heç vaxt milli maraqlara zidd olan aralıq həll variantlarını qəbul etməyib. Onun sözlərinə görə, Azərbaycanın iqtisadi və siyasi gücü artaraq regionda əsas söz sahiblərindən birinə çevrilib: "Ermənistanın Azərbaycana qarşı müharibə cinayətlərinin ifşa edilməsi istiqamətində mühüm tədbirlər görülüb. Azərbaycan haqq-ədalət savaşında öz tutduğu yoldan dönməyərək sonda qələbə qazandı".

907-ci düzəlişin ləğvi məsələsinə toxunan XİN rəhbəri bildirib ki, bu, Azərbaycanla ABŞ arasında yeni əməkdaşlıq dövrünün başlanğıcıdır: "İki ölkə arasında əlaqələrin daha da güclənməsi üçün bu istiqamətdə ABŞ Konqresi ilə müvafiq iş aparılacaq. Prezident İlham Əliyevin Vaşinqtona səfəri Azərbaycan və ABŞ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsinə təkan verdi. Ermənistan cari ilin yanvarın sonunadək, Donald Tramp administrasiyası fəaliyyətə başlayanadək və keçmiş administrasiya dövründə sülh sazişinin müəyyən müddəaları ilə bağlı öhdəliklərə razılıq vermirdi. Bunlar sərhəddə hansısa üçüncü tərəf qüvvələrinin yerləşdirilməməsi və məhkəmə iddialarının geri çəkilməsi ilə bağlı öhdəliklər idi. Ancaq Ermənistan sonradan mövqeyini dəyişdi".

İqtisadiyyat naziri Mikayıl Cabbarov çıxışı zamanı qeyd edib ki, Azərbaycan-ABŞ ticarət əməkdaşlığı yüksələn xətlə inkişaf edir: "2024-cü ildə iki ölkənin ticarət dövriyyəsinin dəyəri 2023-cü illə müqayisədə 94 % çox - 1,7 milyard ABŞ dolları təşkil edib ki, bunun da 1,6 milyard dolları ABŞ-dan idxalın, 135 milyon dolları isə bu ölkəyə ixacın payına düşüb. Azərbaycan ABŞ şirkətləri üçün investisiya cəlbediciliyini saxlayır. Kənd təsərrüfatı, sənaye, nəqliyyat, tikinti, ticarət sahələrində 300 şirkət qeydiyyata alınıb".

Prezidentin ABŞ-yə səfərindən danışan nazir qeyd edib ki, ABŞ Prezidenti Donald Trampın ölkə başçımızı qarşılaması və ona qarşı səmimi münasibəti İlham Əliyevin böyük siyasi lider kimi qəbul etməsinin nəticəsidir: "Trampın Azərbaycan xalqını qüdrətli xalq adlandırması, simvolik olaraq Ağ Evin açarını təqdim etməsi ikitərəfli münasibətlərin strateji mövqeyə yüksəldiyindən xəbər





verir. Azərbaycan torpaqlarının sülh yolu geri qayıtmasına 30 il cəhd edib. ATƏT-in Minsk qrupu ilə aparılan danışıqlıqlar bir nəticə verməyib. Prezidentin uzaqgörən siyasəti nəticəsində dövlətimizin siyasi və iqtisadi qüdrəti güclənib. Nəhayət Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz işğal altında olan torpaqlarımızı azad etdi".

M.Cabbarov Azərbaycanın bir sıra gözləntilərini də dilə gətirib: "Azərbaycan ABŞ-nin "Exxon Mobil" şirkətinin dəstəyi ilə ölkədə böyük qeyri-ənənəvi neft yatağının kəşfinin həyata keçirilməsinə ümid bəsləyir. Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə "Exxon Mobil" arasında Əməkdaşlıq haqqında Memorandumun imzalanması enerji sahəsində əlaqələrin inkişafına müsbət təsir edəcək.

Nazir vurğulayıb ki, Azərbaycanın region və dünyanın enerji təhlükəsizliyinə töhfəsi Vaşinqtonda keçirilən görüşlərdə xüsusi olaraq vurğulanıb: "Azərbaycan bu gün ABŞ-nin 10 müttəfiqini təbii qazla təchiz edir. Ümumilikdə Azərbaycandan boru kəmərləri ilə qaz tədarükü 14 ölkəni əhatə edir. Ölkəmiz bu yaxınlarda Suriyaya qaz tədarük etməyə başlayıb. ABŞ İsrail və Birləşmiş Ərəb Əmirlikləri kimi müttəfiqlərinin neft-qaz hasilatında Azərbaycanın iştirakını təqdirəlayiq hal kimi vurğulayıb".

M.Cabbarov qeyd edib ki, Azərbaycanın elektrik enerji resursları, o cümlədən bərpa olunan enerji potensialı ölkənin məlumat mərkəzi infrastrukturu və süni intellekt texnologiyalarına sərmayələr qoyulması üçün Azərbaycanı cəlbedici məkana çevirir: "Azərbaycan strateji əhəmiyyət daşıyan Mərkəzi Asiya və Cənubi Qafqaz regionu arasında bir sıra layihələrin həyata keçirilməsi üçün əvəzedilməz rol oynayır".

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Nazirlər Kabinetində keçirilən Prezident İlham Əliyevin Vaşinqton səfərinə həsr olunmuş xüsusi iclasda çıxışı zamanı bildirib ki, Zəngəzur dəhlizi Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafını maksimal sürətlə gerçəkləşdirməyə xidmət edəcək. O deyib ki, Zəngəzur dəhlizi açıldıqda Naxçıvanın tarixi izolyasiyası sona çatacaq və muxtar respublika təkcə Azərbaycanın deyil, bütövlükdə regionun iqtisadi yüksəlişində aparıcı rol oynayacaq: "İllərlə davam edən blokadadan sonra Azərbaycanın əsas hissəsi ilə birbaşa, fasiləsiz və təhlükəsiz nəqliyyat yolunun istifadəyə verilməsi Naxçıvan üçün yeni imkanların qapısını açacaq. Yeni yollar, dəmir yolları, enerji xətləri və rəqəmsal bağlantı Naxçıvanı mühüm logistika mərkəzinə çevirəcək. Bu isə ticarət və turizm imkanlarının genişlənməsinə, yerli istehsalın ixrac potensialının artmasına şərait yaradacaq".

Fuad Nəcəfli vurğulayıb ki, Zəngəzur dəhlizi yalnız kommunikasiya xətti deyil, Azərbaycanın iqtisadi, siyasi və geostrateji gücünü artıracaq yeni mərhələnin başlanğıcıdır. Bu dəhliz bütövlükdə regionda sülh, sabitlik və əməkdaşlıq üçün qlobal əhəmiyyət kəsb edir.

F.Nəcəfli son illərdə aparılan islahatların nəticəsi olaraq Naxçıvan Muxtar Respublikanın dövlət büdcəsindən asılılığının əhəmiyyətli dərəcədə azaldığını deyib və əlavə edib ki, Dövlət Proqramının icrası nəticəsində Azərbaycanın dövlət büdcəsindən Naxçıvana ayrılan dotasiya 2022-ci ildəki 425 milyon manatdan 2025-ci ilin ilk 7 ayında 120 milyon manata qədər azalıb: "Bu fakt muxtar respublikada həyata keçirilən islahatların real nəticə verdiyini göstərir. 2025-ci ilin yanvar-iyul aylarında iqtisadi göstəricilər də müsbət dinamikanı əks etdirib. Ümumi Daxili Məhsul (ÜDM) istehsalı 4,8 faiz artaraq 927,3 milyon manat, əhalinin hər nəfərinə düşən ÜDM 4,3 faiz artaraq 1967,1 manat, əsas kapitala yönələn investisiyalar 45,9 faiz artaraq 118,4 milyon manat, sənaye məhsulu istehsalı 14 faiz artaraq 297,5 milyon manat, pərakəndə ticarət dövriyyəsi 3,7 faiz artaraq 789,4 milyon manat, ödənişli xidmətlər 5,8 faiz artaraq 120,2 milyon manat təşkil edib".

Fuad Nəcəfli diqqətə çatdırıb ki, eyni dövrdə iqtisadi fəal əhalinin sayı 3,5 artaraq 273 min nəfər, məşğul əhalinin sayı isə 0,8 faiz artaraq 260 min nəfər olub: "Orta aylıq əməkhaqqı isə 6,3 faiz artaraq 826 manata çatıb. Cari ilin iyulun 1-nə muzdla çalışan işçilərin sayı 60 min 565 nəfər, o cümlədən dövlət sektorunda 37 min 305 nəfər, qeyri-dövlət sektorunda isə 23 min 260 nəfər təşkil edib. Büdcə xərclərinin 64 faizi yerli yığımlar hesabına maliyyələşdirilib ki, bu da əvvəlki proqnozdan (47,33 faiz) xeyli yüksəkdir. Vergi daxilolmalarında da artım qeydə alınıb. Fiziki şəxslərin gəlir vergisi 19 faiz artaraq 32 milyon manat, hüquqi şəxslərin mənfəət vergisi 8 faiz artaraq 13 milyon manat, ƏDV 34 faiz artaraq 41 milyon manat, aksiz vergisi 34 faiz artaraq 44 milyon manat, mədən vergisi 22 faiz artaraq 991 min manat təşkil edib. Sadələşdirilmiş vergidə isə daşınmaz əmlak satışının və bank nağdlaşdırma əməliyyatlarının azalması səbəbindən cüzi eniş müşahidə olunub. Eyni zamanda, dövlət əmlakından icarə haqları da artıb. Dövlət torpaqlarının icarəsindən daxilolmalar 42 faiz artaraq 217,3 min manat, daşınmaz əmlakın icarəsindən isə 5,7 dəfə artaraq 334 min manat olub. 2025-ci ilin ilk yeddi ayında iqtisadiyyata kredit qoyuluşu 33 faiz artaraq 252,5 milyon manat, əhalinin bank əmanətləri 57 faiz artaraq 31,8 milyon manat, nağdsız ödənişlər isə 31 faiz artaraq 592,3 milyon manat təşkil edib. Bank hesablarının sayı 11 faiz, ödəniş terminallarının sayı isə 85 faiz yüksəlib".

Dövlət Proqramının icrası nəticəsində Azərbaycanın dövlət büdcəsindən Naxçıvana ayrılan dotasiyanın 2022-ci ildəki 425 milyon manatdan 2025-ci ilin ilk 7 ayında 120 milyon manata qədər azaldığını deyən Fuad Nəcəfli bildirib ki, bu fakt muxtar respublikada həyata keçirilən islahatların real nəticə verdiyini göstərir.

İclasda Azərbaycan Respublikası Prezidentinin Vaşinqton səfərinin nəticələrindən irəli gələrək hökumət qarşısında duran vəzifələr müəyyən edilib.

***"Səs" qəzetinin Analitik Qrupu***

# Azərbaycanın iqtisadi gücü və milli birliyimiz!

## Prezident İlham Əliyev: "Son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır"



Dünyanın nəzər nöqtəsində olan Azərbaycan Zəfər tarixindən sonra yeni reallıqlar yaradıb. 44 günlük Vətən müharibəsindən sonra qısa bir zamanda, həmin ərazilərdə aparılan abadlıq-quruculuq işləri Azərbaycanın iqtisadi gücünə, dinamik inkişafına söykənir. Əlbəttə ki, aparılan abadlıq-quruculuq işləri paralel olaraq ölkəmizin hər bir bir bölgəsində həyata keçirilir. Azərbaycanın rayonları, şəhər, kənd və qəsəbələri öz abadlığı, gözəlliyi və müasir görkəmi ilə fərqlənir. Bunlarla yanaşı, insanların sosial durumu - həyat şəraiti, mütəmadi olaraq, yaxşılaşdırılır. Qazanılan nailiyyətlər xalqımızı daha böyük qələbələrə və zəfərlərə ruhlandırır. İctimai, siyasi, iqtisadi və hüquqi islahatlar həm ayrı-ayrı sahələrin davamlı inkişafını təmin edir, həm də Azərbaycanın qüdrətli dövlət kimi tərəqqisini şərtləndirir. Azərbaycanın bütün bölgələrində, eləcə də işğaldan azad olunan ərazilərdə görülən işlər - yeni infrastrukturun yaradılması, yeni yolların çəkilməsi, körpülərin salınması və s. ölkəmizin reallıqlarına əsaslanır. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, azad edilmiş bütün torpaqlarda geniş quruculuq, bərpa işləri aparılır: "İşğal dövründə Ermənistan dövləti məqsədyönlü siyasət apararaq bütün şəhər və kəndlərimizi yerlə-yeksan etmişdir. Buraya və azad olunmuş digər bölgələrə səfər edən xarici qonaqlar öz təəccübünü və bir çox hallarda hiddətini gizlədə bilmirlər. Onlara başa salanda ki, bu dağıntılar müharibə zamanı yox, atəşkəs zamanı törədilmişdir, əlbəttə ki, erməni faşizminin eybəcər sifəti açıq-aydın görünür".

Azərbaycanın işğal altında olmuş torpaqlarında erməni işğalçılarının özbaşınalığı, tarix və mədəniyyət abidələrimizin dağıdılması və qəsdən korlanması "Arxeoloji irsin mühafizəsi haqqında" Avropa Konvensiyasına,



"Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" YUNESKO-nun konvensiyasına ziddir. İşğal altındakı torpaqlarımızda təqribən 403 tarixi dini abidə olub ki, onlardan 67-i məscid, 144-ü məbəd, 192-i ziyarətgahdır. 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb.

### TARİXƏ QOVUŞAN MİF

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd edib: "Son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır". Ölkə Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin daha da vüsət almasına böyük təkan vermiş oldu. Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoyub. Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapır. Cənab Prezidentin mütəmadi olaraq işğaldan azad olunan ərazilərə səfərləri və bu məkanlarda görülən işlərlə tanışlığı, eləcə də bir sıra obyektlərin təməlini qoyması minlərlə əzəli sakinin öz yurdunda məskunlaşmasına səbəb olub və bu davam etməkdədir. Azərbaycanın bugünkü reallıqları Prezident İlham Əliyevin müdrik siyasətindən qaynaqlanır. Azərbaycan 30 ilə yaxın bir zamanda işğal altında olan ərazilərini azad etdi. "Bizə qarşı soyqırımı törədilmişdir, bizə qarşı urbisid törədilmişdir, ekosid törədilmişdir. Erməni faşizmi bu bölgəni daim işğal altında saxlamaq istəyirdi və əfsuslar olsun ki, onların arxasında duran bəzi xarici dövlətlər onlarla həmrəy idi. Açıq olmasa da, gizli kanallarla onlara verilən mesajlar ondan ibarət idi ki, Azərbaycan cürət edib heç vaxt azadlıq müharibəsinə başlamayacaq, biz sizin arxanızdayıq, biz sizə dəstək olacağıq, sizə silah veririk, mənəvi dəstək veririk, sizin üçün mənəvi dayağıq. Bütün bu amillər Ermənistanı faktiki olaraq öz işğalçılıq siyasətində daha da gücləndirirdi. Ancaq onlar bir şeyi hesablaya bilməmişlər: o da Azərbaycan xalqının iradəsi, milli ruhu, xalqımızın əyilməz ruhu və bu torpağa olan bağlılığımız", - deyə Azərbaycan Prezidenti bildirib. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilirdi ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymadı və öz işğalçı siyasətini davam etdirdi. Artıq Azərbaycan müharibə yolu ilə öz torpaqlarını işğaldan azad edib və tarixi ədalət bərpa olunub. "Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Azərbaycan xalqı bütün bu illər ərzində Mənə inanırdı", - deyə Prezident bildirib.

### DÜNYANIN ƏN MÜASİR KƏNDLƏRİNƏ KÖÇ

"Azərbaycan dövləti və Azərbaycan xalqı bir yumruq kimi birləşdi və biz Ermənistanı cəmi 44 gün ərzində kapitulyasiya aktını imzalamağa məcbur etdik. 44 günlük Vətən müharibəsi şanlı tariximizdir. Biz hər gün irəli gedirdik. Bir dənə də olsun döyüş meydanını tərk edən olmamışdır. Bir dənə də olsun fərari olmamışdır. Yəni bu, xalqımızın yüksək keyfiyyətlərini göstərir və onu göstərir ki, bütün xalqımız və Silahlı Qüvvələr Vətən uğrunda ölümə getməyə hazır idi. Ermənistan ordusunda isə özlərinin dediklərinə görə 12 min fərari olmuşdur. Vətən müharibəsi başa çatanda Kəlbəcər, Laçın, Ağdamın böyük hissəsi hələ işğal altında idi. Ancaq biz kapitulyasiya aktı nəticəsində Ermənistanı məcbur etdik ki, bu bölgələri bizə qaytarsın və bunu etməyə məcbur olmuşdur", - deyə Prezident diqqətə çatdırıb. Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinin miqyası genişlənib və nəhəng işlər görülür. Vurğulayaq ki, artıq Prezidentimizin işğaldan azad olunan ərazilərə səfərləri tarixi hadisəyə çevrilir. Ermənilərin yaratmaq istədikləri mif tarixə qovuşub. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanları əzəli torpaqlarda əbədi yurd salırlar. Vətən müharibəsində qazandığımız Zəfərdən beş ilə yaxın zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Böyük Qayıdışımızı reallığa çevirmək məqsədi ilə davamlı işlər görülür. Vaxtilə qovhaqovla el-obalarından qaçqın düşənlərin ruzigarlarına salınan naxış bu gün öz rəngini dəyişib. Viran qalmış yurd yerlərinə əzəli sakinlər artıq sahibdirlər.

Əlbəttə ki, 30 il erməni işğalında qalan ərazilərimizdə erməni vandalların törətdikləri vəhşiliklərin nəticəsində yurd yerləri dağdılmış, viran qoyulmuşdur. Əqli mülkiyyətimizə, maddi mədəniyyət abidələrimizə böyük ziyan dəymişdir. Qarabağ, eyni zamanda onun ətrafında yerləşən Azərbaycan ərazilərində Birinci və İkinci Qarabağ müharibələri zamanı qismən və ya tamamilə dağıdılmış, talan edilmiş və ya hər hansı bir şəkildə zərər çəkmiş tarix-memarlıq abidələrimiz əlbəttə ki, tədricən bərpa və təmir olunur və olunacaqdır. Böyük Qayıdışın ilk karvanı, birinci pilot layihə olan "Ağıllı kənd" layihəsi Zəngilanda icra edildi. 2022-ci ildə Ağalıya köç başladı. Bu gün Ağalı kəndi dünyanın ən müasir kəndlərindən birinə çevrilib. Daha sonra isə digər ərzizilərimizə qayıdış oldu. Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda, Laçında yurd sakinlərinin səsi eşidilir.

### "AZƏRBAYCAN ÖZ DÖVLƏT SUVERENLİYİNİ TAM BƏRPA ETMƏLİ İDİ VƏ BUNU ETDİ"

Azərbaycan tərəfi qanunsuz erməni qüvvələrinin mövcudluğuna son qoymaq və bütün ərazilərində tam suverenliyi bərpa etmək məqsədilə, Qarabağ bölgəsində 24 saat ərzində antiterror tədbirləri həyata keçirdi.

*Ardı Səh. 5*

# Azərbaycanın iqtisadi gücü və milli birliyimiz!

## Prezident İlham Əliyev: "Son 80 il ərzində dünyada Azərbaycan qədər tam və mütləq qələbə qazanan ikinci ölkə olmamışdır"

Əvvəli səh. 4

Azərbaycan Ordusunun Qarabağda başlatdığı 19 sentyabr tarixindəki lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması növbəti qələbəmiz oldu. Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Azərbaycan Ordusu döyüş meydanında böyük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı. ”2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi”, - deyə Azərbaycan Prezidenti bildirib. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, ağ bayraq qaldırmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, ”Bizim üçün 2023-cü ilin 19-20 sentyabrı 8 noyabr qədər şərəfli və tarixi günlərdir. O vaxtdan bu yana Azərbaycan xalqı sülh şəraitində yaşayır və əminəm, bundan sonra da sülh şəraitində yaşayacaq. Bilirsiniz ki, Ermənistan-Azərbaycan normallaşması prosesi demək olar ki, başa çatıb və imzalanmış sənədlər bizim maraqlarımızı tam təmin edir. Biz istədiyimizə nail olmuşuq, mənfur Minsk qrupu artıq son günlərini yaşayır. Faktiki olaraq o, heç bir fəaliyyət göstərmirdi və göstərə də bilməzdi. Ancaq hüquqi cəhətdən mövcud idi, indi onun da sonu yaxınlaşır. Ermənistanla sülh müqaviləsinin müəllifi də bizik, o bəndlərin tərtibatında da bizim mövqeyimiz hər zaman əsas götürülmüşdür. Bu sənədin paraflanması faktiki olaraq Ermənistan-Azərbaycan qarşıdurmasına son qoyur”.







2023-cü il tariximizdə Böyük Qayıdışın sürətli inkişaf mərhələsi oldu. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir. Bu ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilib. İşğaldan azad olunmuş ərazilərimizin hər biri, məhz Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Ağalı kimi müasir məkana çevrilir və buranın əzəli sakinləri rahat, təhlükəsiz bir şəraitdə bu yerlərdə əbədi olaraq yaşayacaqlar.

### ”QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA 140 MİN İNSAN YAŞAYACAQ”

Zəfər qazanmış və yeni reallıqlar yaratmış Azərbaycan mina terrorundan əziyyət çəkir. ”Bu gün mina və partlamamış hərbi sursatlar hələ də dünyanın bir çox ölkəsində insan təhlükəsizliyini təhdid edən kəskin problemlərdən biridir. Müharibə bitdikdən on illər sonra belə insanların həyatını təhlükəyə atmaqla yanaşı, minalar sosial-iqtisadi inkişafa, ətraf mühitə, mədəni irsə, münaqişədən sonrakı bərpa və inkişaf təşəbbüslərinə və nəticə etibarilə Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq səylərinə ciddi şəkildə mane olur”, - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Azərbaycan işğaldan azad olmuş ərazilərdə mina xəritələri üçün Ermənistana müraciətlər etsə də, Ermənistan rəsmiləri əvvəlcə bu cür xəritələrin mövcudluğunu inkar edib. Ermənistanın sonradan verdiyi xəritələrin Azərbaycanın işğaldan azad etdiyi ərazilərin yalnız 5 faizini əhatə etdiyi və onların yalnız 25 faiz dəqiq olduğu müəyyən edilib. Lakin Ermənistan əlində olan bütün xəritələri verdiyini iddia edir.

Ermənistanın cinayətkar əməlləri günahsız insanların həyatlarına təhlükə yaratmaqda davam edir. Kütləvi insan tələfatına səbəb ola biləcək minaların xəritəsi tam olaraq hələ də Azərbaycana verilməyib. Ermənistan tərəfindən mülki əhalinin yaşayış yerlərinin yaxınlığında minalar basdırılması və Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına baxmayaraq, dəqiq mina xəritələrinin təqdim edilməməsi beynəlxalq humanitar hüquqa zidd olmaqla, insanların bir çox fundamental hüquqlarının pozulmasına gətirib çıxarır. Bununla bağlı Azərbaycan tərəfimizdən dəfələrlə beynəlxalq təşkilatlara müraciətlər edilsə də, nəticə əldə olunmayıb.

Bu gün Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl, Zəngilan kimi ərazilərimizdə aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə, tank əleyhinə yüzlərlə partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilir. Azərbaycanda artıq yeni bir dövr başlayıb. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər bizi yurd yerinə qaytardı. Azərbaycan tarixi ədaləti bərpa edib və Azərbaycan əzəli torpaqlarına sahibdir. Qazandığımız uğurlar Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, siyasi iradəsinin təzahürüdür. Dövlət başçımızın Azərbaycan xalqı qarşısında verdiyi bütün vədləri yerinə yetirib.

Hədəflər düzgün müəyyən edildiyindən qarşıya qoyulan məqsədlər öz həllini tapır. ”Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Yəni, bu, belə demək mümkündürsə, ən minimal göstəricidir. Mən əminəm ki, bundan daha böyük sayda insanlar məskunlaşacaq, çünki birincisi, bizim buna gücümüz çatır, iradəmiz var, Böyük Qayıdış Proqramı qəbul olunub, uğurla icra edilir, artıqlaması ilə icra edilir və əsas amil odur ki, bizim keçmiş köçkünlər səbirsizliklə o günləri gözləyirlər” - deyə Prezident bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dünya hazırlaşır: Süni intellekt gələcəyin hərbi münaqişələrini idarə edəcək




***Donald Tramp vəzifəyə gəldikdən sonra Co Bayden dövründə qəbul edilmiş bir sıra qərarları, o cümlədən süni intellektin təhlükəsiz inkişafı və istifadəsi ilə bağlı 14110 nömrəli İcra Sərəncamı da daxil olmaqla 78 icra sərəncamını dərhal ləğv etdi.***

2023-cü ildə imzalanmış bu sənəd böyük süni intellekt modellərini inkişaf etdirən şirkətlərdən, xüsusən də OpenAI-dən təhlükəsizlik yoxlamalarının nəticələrini hökumətlə bölüşməyi tələb edirdi. Milli Standartlar və Texnologiyalar İnstitutu süni intellekt texnologiyalarının təhlükəsiz inkişafı və istifadəsi ilə bağlı müvafiq standartlar hazırlamalı, digər qurumlar isə müxtəlif sahələrdə, o cümlədən kimya, bioloji və nüvə sənayelərində, həmçinin kibertəhlükəsizlik və kritik infrastruktur problemləri ilə bağlı süni intellektin istifadəsi ilə bağlı riskləri davamlı olaraq qiymətləndirməli idi.

14110 nömrəli İcra Sərəncamı həmçinin işçilərin və istehlakçıların hüquqlarını süni intellekt texnologiyalarının potensial zərərindən qorumaq üçün müddəaları ehtiva edir. Məsələn, süni intellektin əmək bazarına təsiri haqqında hesabatın hazırlanması və süni intellektə əsaslanan fırıldaqçılıq və ayrı-seçkilik alqoritmləri ilə mübarizə tədbirlərinin hazırlanması nəzərdə tutulurdu.

Tramp dəfələrlə süni intellektin inkişafını administrasiyasının prioritetlərindən birinə çevirmək niyyətində olduğunu bildirib. Onun inauqurasiyasında texnologiya dünyasının bir çox böyük oyunçuları, o cümlədən Cef Bezos, "OpenAI"-ı 100 milyard dollara almaq təklifi ilə çıxış edən İlon Mask, Mark Zukerberq və başqaları iştirak edirdi.

Yəqin ki, "Google"-un süni intellektin təhlükəsiz, qeyri-hərbi inkişafı ilə bağlı direktivindən imtina etməsi təsadüfdür?

Ola bilsin ki, bu, başqa bir təsadüfdür, lakin Avropa Komissiyası 2022-ci ildə təklif edilən Süni İntellektə görə Məsuliyyət haqqında Direktivdən də imtina edib. Bu sənəddə istehlakçıların süni intellekt texnologiyalarının təchizatçılarının, təchizatçılarının və ya istifadəçilərinin təqsiri və ya hərəkətsizliyi nəticəsində dəymiş ziyana görə kompensasiya tələb edə biləcəyi ehtimal edilirdi. Bununla belə, Aİ-nin icraedici orqanının dediyi kimi, yeni təklifin hazırlanması imkanlarına daha sonra baxılacaq.

"Cooley"-in qlobal texnologiya və vençur kapitalı təcrübəsinin rəhbəri Rod Friman qeyd edib ki, bu addım Avropa Komissiyasının süni intellektin tənzimlənməsi üzrə ümumi kursunda dəyişiklik kimi qəbul edilməməlidir. O, Avropada bu sahəni tənzimləyən yeni qanunların artıq qəbul edildiyini və onların təsirinin hələ də qiymətləndirilmədiyini vurğulayıb.

Təbii ki, Çin startapı "DeepSeek" həm yeniləmələrdə, həm də istifadəçi auditoriyasının artımında sürətli inkişaf nümayiş etdirdikdən sonra süni intellektdən istifadə ilə bağlı hadisələr xeyli sürətlənib. Çin birmənalı şəkildə süni intellektin inkişafının bir sıra sahələrində liderliyi ələ keçirməyi planlaşdırdığını bildirdi.

Prezident Trampın prezident Baydenin qərarlarını ləğv etməsinə qayıdaraq, ABŞ-da süni intellektin inkişafına dəstək tədbirlərinin qüvvədə qalacağını güman etmək yerinə düşər. Söhbət süni intellektlə əlaqəli texnologiyaların xaricə ötürülməsinə qoyulan məhdudiyyətlərdən və federal torpaqlarda süni intellekt məlumat mərkəzlərinin sürətlə yaradılmasından gedir.

## Aydınlaşdırma

Süni intellekt (Sİ) geniş mənada maşınlar, xüsusən də kompüter sistemləri tərəfindən nümayiş etdirilən zəkadır. Bu, kompüter elmində maşınlara ətraf mühiti qavramağa və məqsədlərinə çatmaq şanslarını maksimum dərəcədə artıran hərəkətləri yerinə yetirmək üçün öyrənmə və zəkadan istifadə etməyə imkan verən metodları və proqram təminatını dizayn edən və öyrənən bir sahədir. Belə maşınları süni intellekt adlandırmaq olar.

***Elçin***

# II Beynəlxalq Multikulturalizm Gənclər Forumunun iştirakçıları Şuşa və Xankəndi şəhərlərində olublar



Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) ICESCO ilə birgə təşkil etdiyi "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr edilən II Beynəlxalq Multikulturalizm Gənclər Forumunun iştirakçıları Şuşa və Xankəndi şəhərlərində səfərdədirlər. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzindən SİA-ya verilən məlumata görə, forumun iştirakçıları Xankəndi şəhərində aparılan abadlıq-quruculuq işləri ilə tanış olublar.



BBMM-in şöbə müdiri İrina Kunina çıxışında Azərbaycan multikulturalizminin siyasi əsaslarının Azərbaycan Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapdığını bildirib:



"Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti Azərbaycanı çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib. Mühazirə Forum iştirakçıları tərəfindən maraqla qarşılanıb və müzakirələrlə davam edib".




Milli Məclisin deputatı siyasi elmlər doktoru Rizvan Nəbiyev Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişinin əhəmiyyətindən söz açıb. ABŞ-la strateji əməkdaşlıq, 907-ci düzəlişin tətbiqinə verilən imtinanın uzadılması, işğalın nəticələri və məcburi köçkünlərin geri dönüş hüququ kimi məsələlər də diqqətə çatdırılıb.



Forum iştirakçıları "Müasir konfliktlər zamanı sülhün bərpasında dinin rolu" mövzusunda interaktiv müzakirə aparıblar. Sonra "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr edilən II Beynəlxalq Multikulturalizm Gənclər Forumunun iştirakçılarının Şuşa şəhərinə ekskursiyası təşkil olunub. Ekskursiya çərçivəsində gənclərə şəhərin tarixi, mədəni və dini abidələri barədə ətraflı məlumat verilib.



İştirakçılar Xurşidbanu Natəvanın evi və Bülbülün muzeyini ziyarət ediblər. Onlara bu görkəmli şəxsiyyətlərin Azərbaycan mədəniyyətindəki yeri və işğal dövründə abidələrə vurulmuş zərərlər haqqında məlumat verilib. Daha sonra qonaqlar Şuşa qalası, Yuxarı Gövhər Ağa məscidi və Vaqifin məqbərəsini gəzib, restavrasiya və bərpa işləri ilə tanış olublar. Ekskursiya zamanı gənclərə Şuşanın Azərbaycanın musiqi və poeziya beşiyi olması, şəhərin çoxmillətli mədəniyyət mərkəzi kimi tarixi əhəmiyyəti, habelə işğaldan azad olunmasından sonra həyata keçirilən yenidənqurma layihələri barədə məlumat verilib. Forum iştirakçıları həmçinin Cıdır düzünü ziyarət edərək Qarabağın gözəl təbiəti ilə tanış olublar və burada xatirə şəkilləri çəkdiriblər.

Forum çərçivəsində "Öz xalqını təqdim et" musiqili axşamlar da təşkil olunub. Burada iştirakçılar öz xalqlarının mədəniyyəti, adət ənənələri ilə bağlı məlumat veriblər.

Qeyd edək ki, "Gənclər çoxmədəniyyətli mühitdə sülh quruculuğunun elçiləri kimi" mövzusuna həsr olunan II Beynəlxalq Multikulturalizm Gənclər Forumuna avqustun 22-də start verilib. Bakı, Şuşa və Xankəndi şəhərlərində keçirilən Foruma dünyanın 50-dən çox ölkəsindən 70-dək iştirakçı qatılıb.

# Azərbaycana böyük iqtisadi dividendlər gətirən elit yarışma - Formula 1

## Dövlət başçısının Sərəncamı ilə ölkəmizə gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurları sadələşdirilib

***Azərbaycanın inkişafı, möhtəşəm nailiyyətlər ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara və konfranslara ev sahibliyi etməsinə səbəb olub. Paytaxt Bakıda müxtəlif məzmunlu mühüm əhəmiyyət kəsb edən tədbirlərin təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi və yüksək imici səbəbdir.***

Son illərdə Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma müşahidə olunub. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya Çempionatı, "Baku World Challenge" avtomobil yarışı və Olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbiri, o cümlədən, Dünya və Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırıb. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan "Bakı-2015" Avropa Oyunlarını layiqincə təşkil etməklə, tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurmuşdu.









Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib.

Ölkəmizdə keçirilən və dünyanın diqqətini cəlb edən ən əhəmiyyətli idman tədbirlərindən biri də Formula 1 yarışmasıdır. Azərbaycanın idman tarixində yeni bir səhifə olan elit yarışmalar sırasında yer alan Formula 1 yarım əsrdən artıq tarixində yaddaqalan zamanını yaşayır. 2016-cı ildən başlayaraq, paytaxtımızda keçirilən Formula 1 yarışlarının yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə hər cür şərait yaradılıb. Azərbaycan növbəti dəfə Formula 1 yarışmasına ev sahibliyi edəcək.

### ƏCNƏBİLƏR VƏ VƏTƏNDAŞLIĞI OLMAYAN ŞƏXSLƏR AVQUSTUN 25-DƏN SENTYABRIN 30-DƏK VİZA ALA BİLƏCƏKLƏR

2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində qeyd edilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2025-ci il avqustun 25-dən sentyabrın 30-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər. 2-ci hissədə qeyd olunur: Formula 1 yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" Şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya akkreditasiyadan keçməni təsdiq edən digər sənəd; Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı; 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışına bilet, o cümlədən elektron bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

Sərəncamın 3-cü hissəsinə əsasən, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə "Formula One Management Limited" Şirkətinə, Beynəlxalq Avtomobil Federasiyasına və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin. Eləcə də 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın Nazirliyin, eləcə də Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin. Sənəddə o da qeyd olunur ki, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuşlar həyata keçirən aviasiya şirkətlərinə 2025-ci ildə Bakı şəhərində keçiriləcək Formula 1 yarışı ilə əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

### PAYTAXT NÖVBƏTİ AZƏRBAYCAN QRAN PRİSİNƏ SENTYABRIN 19-DAN 21-DƏK EV SAHİBLİYİ EDƏCƏK

Qeyd edək ki, Beynəlxalq Avtomobil Federasiyasının (FIA) Avtoidman üzrə Ümumdünya Şurası 2025-ci il Formula 1 Dünya Çempionatının təqviminə əsasən, paytaxtımız növbəti Azərbaycan Qran Prisinə 2025-ci ilin sentyabrın 19-dən 21-dək ev sahibliyi edəcək.

Formula 1 azarkeşləri arasında keçirilən sorğuya əsasən, respondentlərin 74 faizi Formula 1 Azərbaycan Qran-Prisinin davamlı keçirilməsinin tərəfdarıdır. Azarkeşlərin 73 faizi Bakı şəhər halqasının F-1 yarışının təşkili üçün möhtəşəm yer olduğunu, 74 faizi isə onun ötmə manevri üçün ideal imkan yaratdığını qeyd edib. Ümumilikdə respondentlərin 62 faizi Bakı yarışının Formula 1 təqvimində ən sevimli yarışlardan biri olduğunu vurğulayıb. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan, təşkilatçılıq, təhlükəsizlik və iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlər yüksək səviyyədədir.

Təbii ki, keçirilən bu və ya digər tədbirlər turistlərin ölkəmizə axınını daha da gücləndirib. Bakıda keçirilən Formula-1 Avropa Qran-Prisi yarışlarını dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeşin televiziya vasitəsilə izləməsi, təbii ki, ölkəmiz ətrafında olan münasibətləri formalaşdırır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Formula 1 yarışın ölkəmiz üçün çox böyük faydası olduğunu bildirib: "Birincisi, Formula 1 yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir. İkincisi, Formula 1 yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə". Əlbəttə ki, Formula 1 üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə edir. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanallarında yarışlar müntəzəm yayımlanır. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olur, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bilirlər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın və Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan reportaj və materiallar hazırlayırlar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmır.

### MÜASİR İNFRASTRUKTUR VƏ TƏHLÜKƏSİZ ÖLKƏ

Ölkəmizdə mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Bu nəhəng idman qurğusu müasir memarlıq üslubu, xüsusi gözəlliyi və funksional baxımdan, əlverişliliyi ilə seçilir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin, mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri mövcuddur. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür. Bu və ya digər idman qurğularının paytaxtımızda mövcudluğu yarışların möhtəşəm keçirilməsinə əsas verir. İdman qurğuları ilə yanaşı, ölkəmizin idman sahəsində qazandıqları nəticələr də, çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğruldublar. Bu kimi tarixi nailiyyətlər gənclərimizin idmana maraq və həvəsini daha da artırdı. Azərbaycanın 56 medal qazandıran Birinci Avropa Oyunları, bir daha təsdiqlədi ki, ölkəmizdə perspektivli, gücül idmançılar nəsli yetişməkdədir. Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma var. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.

***Zümrüd BAYRAMOVA***

# Prezident İlham Əliyevin Kəlbəcər səfərinin tarixi-siyasi əhəmiyyəti və yenidənqurma perspektivləri

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci il 21 avqust tarixində Kəlbəcər rayonuna səfəri ölkənin müasir siyasi və sosial həyatında mühüm hadisə kimi qiymətləndirilir. Bu səfər təkcə bölgənin bərpası və inkişafı baxımından deyil, həm də Azərbaycanın müstəqil dövlətçilik tarixində ədalətin bərpasının rəmzi kimi xüsusi əhəmiyyət kəsb edir. İşğaldan azad edilmiş Kəlbəcərdə həyata keçirilən dövlət proqramları, yeni yaşayış komplekslərinin istifadəyə verilməsi, infrastrukturun bərpası və sosial təminat tədbirləri Böyük Qayıdış prosesinin tərkib hissəsi olaraq strateji əhəmiyyət daşıyır.***



Kəlbəcər rayonu Azərbaycanın ən böyük inzibati ərazi vahidlərindən biri olmaqla yanaşı, strateji mövqeyi ilə fərqlənir. 1993-cü ildə rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı Azərbaycan üçün böyük hərbi, siyasi və sosial fəsadlar yaratdı. İşğal nəticəsində on minlərlə kəlbəcərli didərgin düşərək çadırlarda, yararsız binalarda və ağır sosial şəraitdə yaşamağa məcbur oldu.

Prezident cənab İlham Əliyev öz çıxışında Kəlbəcərin işğalını Azərbaycanın tarixində ağır faciə kimi qiymətləndirərək qeyd etmişdir ki, ovaxtkı siyasi rəhbərliyin səriştəsizliyi və xəyanəti bu strateji bölgənin itirilməsinə səbəb olmuşdur. Bu məqam Azərbaycan tarixində dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, milli birliyin gücləndirilməsi və siyasi məsuliyyətin əhəmiyyətini bir daha göstərir.

2020-ci ildəki 44 günlük Vətən müharibəsi Azərbaycanın hərbi-siyasi tarixində dönüş nöqtəsi oldu. Ermənistanın kapitulyasiya aktını imzalaması nəticəsində Kəlbəcər rayonu döyüşsüz azad edildi. Prezident cənab İlham Əliyev bu hadisəni Azərbaycanın güclü ordusunun, xalqın dövlət ətrafında birliyi və milli iradəsinin təntənəsi kimi dəyərləndirmişdir.

2023-cü ilin sentyabrında keçirilmiş lokal antiterror tədbirləri isə Azərbaycanın suverenliyini tam bərpa edərək separatizmin kökünü kəsmişdir. Beləliklə, Azərbaycan dövləti yalnız hərbi qələbə ilə kifayətlənməmiş, eyni zamanda uzunmüddətli sülhün təminatçısı olmuşdur.

Kəlbəcərdə həyata keçirilən geniş miqyaslı quruculuq işləri dövlətin sosial siyasətinin əsas prioritetlərindən biridir. Prezident cənab İlham Əliyevin səfəri çərçivəsində yeni yaşayış komplekslərinin təməlqoyma mərasimləri, mənzillərin sakinlərə təqdim olunması və sosial obyektlərin istifadəyə verilməsi regionun sürətli dirçəlişini göstərir.

Birinci mərhələdə Kəlbəcərdə dörd yaşayış kompleksinin inşası planlaşdırılmışdır ki, burada on mindən çox insanın məskunlaşması nəzərdə tutulur. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə elektrik, su, qaz xətləri, yollar və məktəblər inşa edilir. Xüsusilə, "İstisu" sanatoriyasının və mineral su zavodunun bərpası regionun iqtisadi inkişafına mühüm töhfə verəcəkdir.

Bu proses yalnız infrastrukturun bərpası deyil, həm də kəlbəcərlilərin doğma torpaqlarına qayıdışını təmin edən sosial-iqtisadi layihələrin həyata keçirilməsi deməkdir. Dövlətin məqsədi sadəcə yaşayış yerləri yaratmaq deyil, həm də müasir standartlara cavab verən tamhüquqlu şəhər mühitini formalaşdırmaqdır.

Kəlbəcərin azad edilməsi və bərpası yalnız daxili siyasi məsələ deyil, eyni zamanda regional və beynəlxalq əhəmiyyət kəsb edir. Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması prosesi, Naxçıvanla quru bağlantısının təmin olunması və Zəngəzur dəhlizi layihəsi regionun geosiyasi xəritəsini dəyişməkdədir.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən nəqliyyat və enerji layihələri ölkənin beynəlxalq nüfuzunu daha da artırır. Bu baxımdan Kəlbəcərin bərpası təkcə lokal sosial-iqtisadi inkişaf deyil, həm də Azərbaycanın regional güc kimi mövqeyinin möhkəmləndirilməsinə xidmət edir.

Prezident cənab İlham Əliyevin 2025-ci ildə Kəlbəcərə səfəri bir tərəfdən Azərbaycanın hərbi-siyasi qələbəsinin davamlı təsdiqi, digər tərəfdən isə işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində dövlət siyasətinin real təzahürü kimi dəyərləndirilməlidir. Bu səfər həm də milli birliyin, dövlətçilik iradəsinin və sosial ədalətin rəmzi olaraq tarixə düşür.

Kəlbəcərin bərpası Azərbaycanın Böyük Qayıdış Proqramının mühüm tərkib hissəsi olmaqla yanaşı, gələcək nəsillərə sabit və firavan vətən bəxş etmək missiyasını özündə ehtiva edir. Əldə olunmuş tarixi Zəfər və sonrakı quruculuq işləri göstərir ki, Azərbaycan dövləti müasir dövrdə həm milli maraqlarını təmin etmək, həm də beynəlxalq arenada dayanıqlı inkişaf nümunəsi yaratmaq gücünə malikdir.

***Adil HƏMİD***
***Şair, publicist***

# Londonda konsulluq xidmətləri ilə bağlı məsləhətləşmələr keçiriləcək



Azərbaycan və Böyük Britaniya arasında konsulluq əməkdaşlığına dair məsləhətləşmələrin növbəti raundunun bu ilin sonunadək Londonda keçirilməsi planlaşdırılır. SİA xəbər verir ki, bu barədə Böyük Britaniyanın Avropa, Şimali Amerika və dənizaşırı ərazilər üzrə dövlət naziri Stiven Dauti bildirib.



**Lalə Mehralı**

# Və insan doğuldu...

***İnkişaf, tərəqqi, yeniliklər qorxudub məni həmişə. İnsan övladının etdiyi hər yeni ixtira sona daha çox yaxınlaşdığımızı hiss etdirir mənə. İnternet, süni intellekt, robot qadınlar, süni insan fabriki hazırlıqları ilə insan övladı hədələyir dünyanı.***

Dünyaya, kainata, Tanrıya aid sirlər açılır bir-bir, insan Yaradana meydan oxuyur. Bəlkə öz yaratdığına verdiyi qüdrət üçün çoxdan peşman olub o da. Bəlkə də doğulduğu üçün insan da peşman olacaq nə vaxtsa. Hər şey olub-bitdikdən sonra, son yaxınlaşdığı zaman...

Daha hər şey edə bilir insan. Uça bilir, göyün yeddinci qatında, suyun altında yaşaya bilir, Ayı, ulduzları fəth edə bilir, atomu parçalayır, torpaqdan, küləkdən enerji düzəldir, minlərlə kilometr uzaqlığa görüntü, səs göndərə bilir, dünyanın hər yerini canlı izləyə bilir, hərəkət edən, ağlı-şüuru, dərrakəsi olan robotlar düzəldə bilir. Bir az da irəli gedərək insan düzəltmək üçün araşdırmalara başlayıb insan.

Açdığı hər sirrə görə yaradana daha çox yaxınlaşır, bildiyi hər şeyə görə dünyanın sonuna doğru gedir. Allahlıq etmək istəyir insan, bu potensialı görür özündə. Əslində, bildiyimizi bilmədiyimiz çox cövhər var içimizdə, bildiyimizin fərqinə vardığımız günü düşündükcə ətim ürpəşir. Bir gün öləcəyini bilə-bilə heç vaxt ölməyəcəkmiş kimi yaşayır insan.

Bir həqiqəti bilib etinasızcasına kənara itələmək cəsarətdir, ya ağılsızlıq? Normalda ölüm qorxusu ilə yaşamaq istəyi bir-birinə yoldaşdır. Biri, digəri olmadan zehnində yer eləmir insanın. Ən çətin anımızda, ölməyi arzuladığımız vəziyyətlərdə belə yaşamaq istəyi həmişə üstün gəlir. Yaşamaq istəyimizin ən dolu, ən güclü olduğu zamanımızda belə ölüm qorxusu hiss etmişik mütləq, boyun-boğazımızda soyuq nəfəsi dolaşıb nə vaxtsa.

Fikrimcə, bəzilərimizin içindəki qaranlığın ölüm qorxusunun böyüklüyü, bəzilərimizin içindəki işığın yaşamaq istəyinin çoxluğu ilə bir əlaqəsi var. Məncə, əksinə olmalıdır. Axı yaşamağın bir sonu, ölümün isə sonsuzluğu var. İnsan sonu olan şeylərdən qorxmaq yerinə, sonu olmayan şeyləri sevsə daha xürrəm olmazmı? Məncə, bunu dərk etsə ölməyə də tələsər insan.

Zehni, dərrakəsi süni insan yarada biləcək qədər inkişaf edən insan övladının öləcəyini bildiyi halda ölümə inanmaması da bir ayrı müəmma deyilmi? Bəlkə də ölməyəcəyinə olan inam həyatda saxlayır insanı. Əgər bir gün yaşamağa dair ümidlərini itirsə sona doğru daha çox yaxınlaşar. Ümid ən sonda da ölmür. Ümid həmişə yaşayır. Ümid əbədiyaşardır məncə. Ümid də nəfəs alır, gəzir, düşünür. Ölümcül xəstələrinin xoş sözlərlə ömrünü uzadan həkimlər ümiddir məsələn. İnam insan üçün yeməkdir, sudur, havadır. İnam sonsuzluğa inandırır insanı, ümid sonsuzluğun olma ehtimalına.

İçindəki qaranlığa qalib gələnlər ölümə də qalib gəlir əslində. İçinizdəki qaranlıqdan qorxmayın. Orda günah, ayıb bildiklərinizlə yanaşı insanın qüdrəti, gücü də gizlənib. Tutun əlindən, azadlığa çıxarın. Dünya o vaxt yaşanılası halda olmaz ki içimizdəki qaranlıqlar böyüsün, gücümüz, ümidimiz o qaranlıqda gizlənsin. Yaradanın içinizdəki surətini çıxarın, "həqq məndədir" deyimini xatırlayın.

İnam, ümid, sevgi, mərhəmət - içinizdə nə varsa onunla birlikdə çıxacaq. Dünyamız yalnız belə-belə gözəlləşəcək. Qaranlıqlarda boğmayın insanlığı.

# Yay tətilinin uşaqlar üçün faydaları və mənfi cəhətləri

***Yay tətili uşaqlar üçün ilin ən sevilən dövrüdür. Məktəbdən uzaq, dərs yükündən azad olan balacalar bu vaxtı oyun, səyahət və istirahətlə keçirirlər. Tətil onların fiziki və emosional sağlamlığı üçün vacib olsa da, düzgün idarə olunmadıqda bəzi mənfi nəticələr də doğura bilər. Bu baxımdan yay tətilinin həm faydalarını, həm də çatışmazlıqlarını nəzərdən keçirmək vacibdir.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



## Yay tətilinin uşaqlar üçün faydaları və mənfi cəhətləri

Faydaları

Dincəlmə və bərpa

Uzun tədris ilindən sonra uşaqların zehni və fiziki istirahətə ehtiyacı olur. Yuxu rejimini nizamlayır, stress azalır.

## Ailə ilə daha çox vaxt

Valideynlər və uşaqlar birlikdə daha çox zaman keçirirlər. Ailəvi səyahətlər, kənddə qohum ziyarətləri uşağın sosial bağlarını gücləndirir.









## Təbiətlə ünsiyyət

Dəniz, kənd həyatı, açıq hava uşağın həm sağlamlığına, həm də emosional vəziyyətinə müsbət təsir göstərir. Günəş vitamini - D vitamini sümüklərin inkişafı üçün faydalıdır.

## İstedadların inkişafı

Yay məktəbləri, idman düşərgələri, kurslar uşaqlara yeni bacarıqlar qazandırır. Uşaqlar öz maraq dairələrinə uyğun fəaliyyətlərlə məşğul ola bilirlər.

## Sosial bacarıqlar

Düşərgə və kollektiv oyunlarda yeni dostlar qazanmaq imkanı olur. Komanda işi və ünsiyyət bacarığı inkişaf edir.

## Mənfi cəhətləri

*Dərs biliklərinin unudulması*

Tətil uzun çəkdiyi üçün uşaqların oxu, riyaziyyat və digər fənlərdə bilikləri zəifləyə bilər. Yeni tədris ili başlayanda çətinlik yaradır.

## Texnologiyadan asılılıq

Boş vaxt çox olduğuna görə telefon, planşet və kompüter qarşısında həddən artıq vaxt keçirirlər. Hərəkətsizlik sağlamlıq problemlərinə səbəb olur.



## Nəzarətsizlik riski

Valideynlər işlədiyi üçün uşaqlar tək qalırsa, təhlükəli hallarla üzləşə bilərlər. Küçədə, hovuzda və ya dənizdə nəzarətsiz qalmaq qəzalara səbəb ola bilər.

## Qidalanma rejiminin pozulması

Uşaqlar fast-food, şirniyyat və qazlı içkilərə meyllənirlər. Bu da həm çəki artımı, həm də vitamin çatışmazlığı yarada bilər.

## Nizam-intizamın zəifləməsi

Yuxu rejimi pozulur, gec yatıb gec oyanırlar. Yeni dərs ilinə uyğunlaşmaqda çətinlik çəkirlər.

Yay tətili uşaqlar üçün həm sağlamlıq, həm də inkişaf baxımından çox faydalıdır. Amma valideynlər bu müddətdə uşağın vaxtını düzgün təşkil etməli, həm dincəlməsinə, həm də öyrənməsinə şərait yaratmalıdır. Belə olduqda yay tətili həm faydalı, həm də yaddaqalan olur.

Yay tətilində uşaqların vaxtını səmərəli keçirməsi üçün valideynlər mühüm rol oynayır.

## Valideynlərə yay tətili məsləhətləri

*Tətil planı qurun*

Uşağın gününü sadəcə oyunla deyil, həm də öyrədici fəaliyyətlərlə zəngin edin. Oxuma, idman, ailəvi gəzinti və istirahət üçün ayrı vaxt ayırın.

## Kitabla dostluq davam etsin

Hər gün ən azı 20-30 dəqiqə kitab oxuma vərdişi saxlanılsın. Nağıl, uşaq romanı və ya maraqlı bilik kitabları uşağın təfəkkürünü inkişaf etdirir.

## Texnologiya istifadəsini məhdudlaşdırın

Telefon, planşet və kompüterdən istifadə vaxtını gündəlik limitlə məhdudlaşdırın. Onu alternativ fəaliyyətlərlə əvəz edin: idman, rəsm, puzzle, stolüstü oyunlar.

## Açıq havada aktivlik

Parka, dənizə, kəndə və ya bağçaya gəzintilər təşkil edin. Açıq hava oyunları uşağın həm immunitetini gücləndirir, həm də enerjisini düzgün istiqamətə yönəldir.

## Sağlam qidalanmaya diqqət

Mövsüm meyvə-tərəvəzi masadan əskik olmasın. Fast-food və qazlı içkilərin istifadəsini minimuma endirin.

## Təhlükəsizlik qaydalarını öyrədin

Dəniz və hovuzda yalnız böyüklərin nəzarəti ilə üzməyə icazə verin. Küçədə hərəkət qaydalarını, yad insanlarla davranışı uşaqlara xatırladın.

## İstedad və maraqları dəstəkləyin

Uşağı kursa, yay məktəbinə, idman və ya musiqi dərslərinə yazdırmaq faydalıdır. Onun bacarığını üzə çıxarmağa kömək edin.

## Yuxu və rejim

Gec yatıb gec oyanmaq vərdişini qırmaq üçün tətil dövründə də müəyyən rejim saxlayın. Bu, sentyabrda məktəbə uyğunlaşmanı asanlaşdıracaq.

Beləliklə, valideynlər uşağın tətilini həm əyləncəli, həm də faydalı edə bilərlər.

***Ayşən Vəli***

ARAŞDIRMA

# Beynəlxalq aləmə vəsiqə alan Azərbaycan muğamı



***Y**aşı bilinməyən muğamlarımızın müəllifi Azərbaycan xalqıdır və muğamımız yalnız Azərbaycanda, Şərq ölkələrində deyil, ümumilikdə dünyada sevilir və bəşəriyyətin mənəvi irsinin bənzərsiz xəzinələrindən hesab edirlir. Ən qədim musiqi janrlarından olan muğam bütün dövrlərdə dünya musiqişünaslarının, sənətsevərlərin diqqət mərkəzində olması əbəs yerə deyildi. Qədim və orta əsr musiqi mədəniyyətinin, folklorunun öyrənilməsində muğam əsas amillərdən biri kimi tədqiqatçıların daim təhlil obyektinə çevrilmiş və bu janr bu gün də musiqişünaslar tərəfindən araşdırılmaqdadır.*

Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək Yolu üzərində yerləşən ölkələrin musiqisi günü kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara Musiqisi Festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir. Bu tarix muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün ən əziz bayramdır.

Azərbaycan muğamı dünya ölkələrində birmənalı olaraq qəbul edilir, dünyanın mədəni irs siyasında nadir əsər tək qorunur və təqdim olunur. 26 avqust tarixi bütün muğamsevərlərin, xüsusilə də, bu sənət növünü yaşadan və onun təbliğinə daim yaradıcılıq və həyat yolunu həsr edən şəxslərin bayramıdır. Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də, onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır.

## MUĞAMIN TƏDRİSİ 3 MƏRHƏLƏLİ SİSTEM ÜZƏRİNƏ KÖÇÜRÜLDÜ

XX yüzilin 20-ci illərindən başlayaraq - sovet dövründə Azərbaycanda musiqi təhsili, o cümlədən, muğamın tədrisi 3 mərhələli sistem üzərinə köçürüldü: məktəb - texnikum - konservatoriya. Beləliklə, muğam sənətinin tədrisi prosesi indi formal olaraq 14-15 il vaxt aparır. İfaçılar özləri hesab edirlər ki, professional yetkinlik musiqiçiyə 5-10 il praktik çıxışlardan tez olmayaraq çatmaq olar. Beləliklə, muğam ifaçısının ustad, yəni öz peşəsində əsil professional olmasından ötrü 20-25 il vaxt tələb olunur. Tələbin bu səviyyəsi özlüyündə muğamı şifahi ənənəvi professional sənət səviyyəsinə qaldırır.

Azərbaycanda sovet rejimi qurulduqdan sonra, xüsusən də, 30-cu illərdən başlayaraq, musiqi mədəniyyəti tamamilə dövlətin nəzarəti altına keçir. Sovet dövlətinin yürütdüyü "dəmir pərdə" siyasəti uzun müddət Azərbaycan musiqisi üçün beynəlxalq musiqi məkanına çıxışı bağlamışdı. XX yüzilin əvvəllərində, Şərq incəsənəti Qərb auditoriyasında maraq doğurduğu vaxtlarda Azərbaycan musiqiçiləri məlum siyasi vəziyyətə görə, ona sərbəst çıxışa malik olmadıqları kimi sovet Şərqinin ənənəvi musiqiçiləri də belə bir çıxışa malik deyildilər. Müvafiq olaraq Qərbin bədii məkanında müsəlman Orta Şərqinin musiqi mədəniyyətlərindən daha çox yeri ərəb, İran və türk ənənəvi musiqisi tutmuşdur. Xarici mədəni məkanda Azərbaycan muğamının mövqeyinin itirilməsi ilə yanaşı, Azərbaycanın özünün daxilində də keçən yüzilin 20-30-cu illərin məlum şüarlarında ifadə olunmuş nihilist tendensiya ("doloy tar!", "doloy muğam") tədricən muğam sənətinin ictimai statusunu laxlatdı.

XX yüzilin 30-cu illərindən başlayaraq, 70-ci illərədək olan dövrdə Azərbaycan cəmiyyətində muğamata primitiv sənət kimi baxış tədricən möhkəmlənməyə başladısa da, hər halda cəmiyyətdə, onun müəyyən bir hissəsində muğamatın populyarlığını azaltmadı. Muğam sənətinə münasibət yalnız XX yüzilin 70-ci illərində ənənəvi musiqinin ilk beynəlxalq simpoziumları və festivallarının keçirilməsindən və bu hadisələrin sovet cəmiyyətində geniş əks-səda doğurmasından sonra dəyişməyə başlayır. Bu tədbirlər ənənəvi musiqi sənətinə marağın oyanmasına və ona yüksək dərəcəli professional sənət olaraq baxışların formalaşmasına rəvac verdi. XX yüzilin 90-cı illərindən başlayaraq Azərbaycan muğam sənəti dünyanın hər yerində dinləyicilərin, mütəxəssislərin və menecerlərin diqqətini get-gedə daha geniş şəkildə özünə cəlb etməyə başlayır. Azərbaycanın ənənəvi musiqiçiləri beynəlxalq festivallarda iştirak edir, dünyanın hər yerinə qastrollara çıxır, onların diskləri Qərbin ən iri səsyazma studiyalarında buraxılır.

## HƏR KƏSİN QƏLBİNİ, RUHUNU OXŞAYAN MUSİQİ

Müasir dövrümüzdə özünün yeni bir inkişaf dövrünü yaşayan Azərbaycan muğamı dövlət tərəfindən qorunur və təbliğ edilir. Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verilir. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etməliyik. "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunu nəfis şəkildə nəşr etmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır.

Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilmiş layihələr arasında Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması önəmli yer tutur. Regionlarda da Muğam Mərkəzlərinin yaradılmasına dəstək verən Heydər Əliyev Fondunun təşəbbüsü Muğam Mərkəzləri inşa olunmuşdur. Füzuli, Ağcabədi, Ağdam kimi rayonlarında muğam mərkəzləri yaradılmışdır.

Bildiyimiz kimi, cari ilin mayın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Ağdam Muğam Mərkəzinin açılışı oldu. Ağdam Muğam Mərkəzinin təməli 2023-cü ilin mayında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub. Buradakı 474 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam konsertləri təşkil etmək üçün hərtərəfli şərait var. Mərkəzdə 15 dərs otağı, sərgi salonu, iclas zalı və digər otaqlar yaradılıb. Muğam Mərkəzinin ərazisində 615 tamaşaçı tutumu olan açıq amfiteatr da inşa edilib. Mərkəz Qarabağ bölgəsində qədim muğam sənəti incisinin işğaldan əvvəlki şöhrətinin bərpası, tədrisi və təbliğində, gənc nəsildə muğama sevginin aşılanmasında mühüm rol oynayacaq.

## DÜNYANI FƏTH EDƏN AZƏRBAYCAN MUĞAMI

Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə müxtəlif müsabiqələr və beynəlxalq festivallar təşkil edilərək həyata keçirilir. İlk olaraq fondun birbaşa dəstəyi ilə keçirilən və Azərbaycan muğam sənətinin inkişafına və təbliğinə böyük töhfələr verən muğam müsabiqələrini və beynəlxalq festivalları qeyd etmək lazımdır. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam müsabiqəsi Azərbaycan tamaşaçıları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımız tərəfindən də razılıqla qarşılandı. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə fond 2007-ci ildən başlayaraq muğam müsabiqəsi keçirilir. Bakıda Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə dünyada ilk dəfə olaraq "Muğam aləmi" Beynəlxalq Muğam Festivalının keçirilib. Festival çərçivəsində keçirilən Respublika Muğam Müsabiqəsi, Beynəlxalq Muğam Müsabiqəsi və Beynəlxalq Elmi Simpoziumda muğamsevərlər, elmi tədqiqatçılar və dünyanın bir çox ölkələrindən dəvət olunmuş xarici qonaqlar iştirak etmişlər. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan muğam sənətinə bu diqqət və qayğısı muğamın təbliği, tədrisi, peşəkar musiqi ifaçılığının, müasir dinləyici mədəniyyətinin formalaşdırılmasında əvəzsiz rol oynayır.

2008-ci ildə, həmçinin, Fondun Azərbaycan muğamına həsr olunmuş yeni nəşri - "Azərbaycanın muğam ensiklopediyası" (iki cilddə) Azərbaycan, rus və ingilis dillərində nəşr edilmişdir.

Bu gün Azərbaycan muğam sənətinin nüfuzlu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək bu sənəti nadir əsər tək tamaşaçılar çatdırırlar. Demək olar ki, bu gün Azərbaycan muğamı dünyanı fəth edib. Bu sənətin qocaman, yaşlı, gənc səntkarları hər zaman öyrənir, öz üzərilərində çalışır və Azərbaycan müğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Belə bir sənət növü ilə hər bir azərbaycanlı qürürlanmaqda haqlıdır. Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü elan olunması bir daha Azərbaycan mədəni irsinə beynəlxalq səviyyədə verilən qiymətdir. Bu gün dövlətimizin mədəniyyətimizə, o cümlədən muğam sənətinə, onu yaşadanlara böyük diqqət və qayğısı onları yeni-yeni yaradıcılıq axtarışına həvəsləndirir. Muğamımız bu gün bütün dünyanı fəth etmək, dilindən, dinindən, irqindən, miliyyətindən asılı olmayaraq, hər kəsin qəlbini, ruhunu oxşamaq iqtidarındadır.

***Zümrüd BAYRAMOVA***

## Mətləb Salahov: "Erməni baş nazir Azərbaycanla Sülh Müqaviləsinin açarı kimi ilk addımı Konstitusiya dəyişikliyi ilə başlamalıdır"



"Nikol Paşinyan Vaşinqtonda üzərinə götürdüyü öhdəlikləri reallaşdırmaq üçün ilkin addımlar atmağa hazırlaşır. Hər halda Ermənistanın Müstəqillik Bəyannaməsinin qəbulunun ildönümündə baş nazir Nikol Paşinyanın açıqladığı fikirlər və nə etmək istədiyini dilə gətirməsi bunu deməyə əsas verir. Məncə N.Paşinyan həm Azərbaycanla Sülh müqaviləsi imzalamaq üçün, həm də artıq yüz ildən çoxdur ki, erməni ictimai şüuruna ağır xəstəlik kimi daxil olan daşnak düşüncəsini birdəfəlik məhv etmək üçün ilk əvvəl Konstusiyasiya dəyişikliyinə əl atmalıdır. Çünki məhz Konstitusiyadakı işğalçılıq müddəaları erməni cəmiyyətini daşnak və işğalçılıq şüuru ilə "qidalandırır". Əgər N.Paşinyan əsaslı dəyişiklik etmək və Ermənistanı on illiklərdir ki, faşist cəngində saxlayan revanşist siyasətdən yaxa qurtarmaq istəyirsə o zaman daşnak ideologiyası üçün heç bir hüquqi tutanaq saxlamamalıdır."

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, Ermənistandakı iylənmiş çoxəsrlik xəstə streotipləri sındırıb məhv etmək üçün ilk əvvəl başdan-ayağa Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları ilə dolu olan bu sənəd tarixin zibilliyinə atılmalıdır.

"Diqqət edin, erməni baş nazir bəyan edib ki, Müstəqillik Bəyannaməsinin müddəaları Qarabağ ətrafındakı separatçılıq hərəkatının əsasını qoyub. Baş nazir açıq-aşkar erməni cəmiyyətinə mesaj verir ki, bu ideologiyadan imtina ölkənin müstəqilliyini qorumaq, hazırkı geopolitik dəyişikliklər fonunda Ermənistanı mühüm layihələrə qoşmaq və iqtisadi bataqlıqdan çıxarmaq üçün olduqca vacibdir.

Ən əsası Azərbaycanla Sülh Müqaviləsi imzalamaq üçün ərazi iddiaları ilə dolu maddələri tarixin zibilliyənə atmaq lazımdır ki, iki ölkə arasında normal münasibətlər üçün ilk addım atılsın. Bunu Ermənistanda iqtidarlı-müxalifətli hər kəs əla dərk edir."

# Zəngəzur kimindir?

## İran və Rusiyanın qanunsuz müdaxiləsi yalnız düşmənçilikdir






***Azərbaycan Naxçıvana quru keçidi əldə etmək üçün yollar axtarır. Beynəlxalq səviyyədə aparılan danışıqlardan tutmuş, Ermənistanla ikitərəfli görüşlərə qədər məqsəd birdir, məsələni sülh yolu ilə həll etmək. Əslində tarixən bizimki olduğu halda, hazırda Ermənistanın idarəçiliyində olan, bu ölkənin ərazisi hesab edilən Qərbi Zəngəzurdan keçid istəmək və bu istəyə adekvat reaksiya vermək yalnız iki ölkənin - Azərbaycanla Ermənistan arasında aparılan danışıqlardan və onların istəyindən asılıdır. Və burada üçüncü qüvvə, ölkə, beynəlxalq təşkilatın heç bir rolu və marağı olmamalıdır. Amma Ermənistanın məsələni bilərəkdən beynəlmiləl statusa qədər daşıması səbəbindən, indi həm regional, həm də qeyri-regional güclərin maraqlarını nəzərə almaq lazım gəlir.***

Rusiyanın Qafqaz siyasəti çar və sovet dövründən bu günümüzə qədər dəyişməyib. Forma dəyişsə də mahiyyət eynidir, Moskva "mən Qafqazdayam və heç yerə gedəsi deyiləm" deyir. Ötən əsrin əvvəllərində çar Rusiyasının süqutu ilə imperiyanın yerində bir neçə müstəqil dövlət yaransa da, II Nikolayın varisi olan "proletariat diktaturası" Leninin




rəhbərliyi altında yeni bir imperiyanın əsasını qoydu. Təzəcə müstəqillik əldə etmiş dövlətləri yeni imperiyanın subyektinə çevirmək, xalqları müstəmləkə zülmü altında inlətmək üçün min bir oyun qurdu, "kasıblar hökuməti"nin əli ilə hakimiyyətləri bir-birinin ardınca devirdi və istəyinə nail oldu. 70 illik əsarətdən sonra xalqlar yenidən azadlıq əldə etdi, öz haqqını, hüququnu bərpa etdi. Amma Rusiyanın mahiyyəti yenə dəyişməyib, yenə imperiya xislətini gizlətmir, heç bir ölkənin maraqlarını nəzərə almadan yalnız öz iddialarının təmin olunmasına çalışır.

Bu gün Kreml açıq şəkildə keçmiş SSRİnin bərpasına can atır. Ukraynada baş verən, bu ölkənin şəhər və kəndlərini xarabazara çevirən, milyondan artıq insanını məhv edən, on milyondan artıq vətəndaşını ölkədən didərgin salan müharibənin məqsədi də budur. Rusiya hər kəslə güc dilində danışır, uzun illər, hətta yüz illər boyunca ələ keçirdiyi torpaqların yeraltı və yerüstü sərvətlərini, bu ərazilərdə yaşayan xalqların beyin məhsullarını, xammalını insan resurslarını zorla ələ keçirərək bu gün dünyanın ən zəngin ölkəsinə çevrilən Rusiyanı danışdıran da həmin var-dövlətdir, sərvətdir.

Rusiya ələ keçirdiyi torpaqlarda möhkəmlənmək üçün çox unikal üsullardan istifadə etməsi heç kimə sirr deyil. Bu üsullar nədir? Öncə rus millətindən olanların, həm də daha çox qadınların imperiyanın ucqarlarına müxtəlif adlar və bəhanələrlə yerləşdirilməsi, onlara xüsusi imtiyazların verilməsi, həmçinin həmin qadınlarla evlənənlərin də bu imtiyazlardan istifadə imkanları barədə apardığı təbliğat bu bədnam siyasətin həyata keçməsində böyük rol oynadı. Xalqların müqavimət qabiliyyətinin minimum endirilməsi üçün yerlərdə olan savadlı kadrların Rusiyanın içərilərinə köçürülməsi, onlara müxtəlif şəraitin yaradılması ilə, digərlərinin də həvəsini artırırdı və düşünən beyinlər talançı, qaniçən imperiyaya xidmət etmiş olurdu. Əsas məsələ isə həmin şəxslərin ruslaşdırılması idi. Onların bir qismi özlərini rus millətinin nümayəndəsi kimi təqdim etməsələr də, övladları böyüdükləri mühitə uyğun olaraq özlərini "böyük qardaş"ın nümayəndəsi hesab edirdi.

Dünyada təklənən və bütün qonşuları ilə müharibə şəraitində olan Rusiya beynəlxalq münasibətlər sistemində özünün ən çirkli siyasətini yürütməkdədir. "Bizim sərhədlərimiz rusların yaşadığı ölkələrdə bitir", fikrini Rusiyanın brinci şəxsi heç nədən və kimdən çəkinmədən bəyan edir. Adətən, bu "əşq"ə düşənlərin sonu heç də yaxşı qurtarmır, bu, artıq ağıl kəmliyidir, bu, qlobal savaş, hətta növbəti dünya müharibəsi deməkdir. Ən təhlükəlisi odur ki, Rusiya məhv olacağını hər kəsdən yaxşı bilir. "Cəhənnəmə gedən özünə yoldaş axtarar" prinsipindən çıxış edir. Əlində nüvə silahı olsa da, başında zərrə qədər də ağıl yoxdur.

Rusiyanın Azərbaycanla bağlı siyasətini analiz etsək, Moskvanın növbəti münaqişə ocağı yaratmaq istəyini açıq-aydın görərik. Azərbaycan Vətən müharibəsinə başlayanda və bu savaşı cəmi 44 günə Zəfərlə, Böyük Qələbə ilə başa vuranda Rusiya Azərbaycanda yox idi. Rusiya ordusu Ermənistanda qalsa da, Azərbycandan ötən əsrin 90-cı illərindən tərk etmişdi. Qəbələ RLS-də qalan sonuncu rus əsgəri isə 2013-cü ildə buradan getdi. Həm birinci, həm də ikinci Qarabağ müharibəsində Rusiya bütün imkanları ilə Ermənistana hərbi yardım edirdi. Vətən müharibəsi ərəfəsində Rusiyanın Ermənistana milyardlarla dollarlıq təmənnasız silah-sursat yardımı etməsini heç kim unutmayıb. Müharibənin gedişində də ruslar Ermənistan silahlı qüvvələrinin tərkibində idilər. Qarşı tərəfin apardığı hərbi əməliyyatlardan "rus qoxusu" gəlirdi. Ən sonunda ifşa və biabır olacağından qorxan Rusiya Şuşanın azad edilməsindən sonra naəlac qalıb taktikasını dəyişdi, Ermənistan rəhbərliyinə müharibəni təcili dayandırmaq və danışıqlara başlamaq əmrini verdi. Hadisələrin gedişi də göstərdi ki, bu, sadəcə vaxt qazanmaq, Azərbaycanı arxayın salmaq və sonunda separatçı erməni xuntasının Qarabağda mövcudluğunu davam etdirməsi üçün idi. Rəsmi Bakı isə başlatdığı haqlı iddiasını reallaşdırmaq, torpaqlarını azad etmək, bir milyona yaxın məcburi köçkünün öz yurdlarına qatıtmasını təmin etməkdə israrlı idi. Separatçıların qondarma "ordusu"na fürsət verməmək üçün bütün strateji yüksəkliklər ələ keçirildi, Ermənistandan gələn təminat yolları kəsildi, Qarabağdan təbii sərvətlərimizin daşınmasına son qoyuldu. Rusiyanın "sülhməramlı" adı altında Qarabağa yerləşdirdiyi 1960 nəfərlik hərbi birləşməsi isə tam olaraq neytrallaşdırıldı. Bu taktika və strategiya sayəsində Azərbaycan həm erməni separatizmindən, həm də Rus ordusundan xilas oldu.

Əslində, Rusiyanın o vaxt Qarabağda nə baş verdiyini anlamaq imkanı olmadı. Paşinyanın "Qarabağ Azərbaycan ərazisidir" etirafı isə Kremlə növbəti ağır zərbə oldu. Putin vassalı olan Ermənistan rəhbərliyindən bunu gözləmirdi. Amma olanlar olmuşdu, Paşinyan hökumətinin reallıqla məcburi barışığı Kreml rəhbərini çıxılmaz duruma soxmuşdu. Bu gün Ermənistan Rusiyanın rəhbərlik etdiyi heç bir regional təşkilatda iştirak etmir və üzünü Qərbə tutur. Moskva isə "rıçaq"larını işə salmaqla İrəvanı "imana-dinə" gətirmək istəyir. Bu "rıçaq"ların biri 102-ci ordudur, ikincisi Rusiya sərhədçilərinin İran istiqamətində dislokasiya olunması və "üçtərəfli Bəyanat"dan istifadə edərək "Zəngəzur dəhlizi"nə nəzarəti ələ keçirməkdir. Rusiya 5 minlik 102-ci oldusu ilə Ermənistana, daha doğrusu Paşinyan hakimiyyətinə qarşı nə isə edə bilər, amma Zəngəzur dəhlizinə bu, bir az qəliz məsələdir. Çünki, avqustun 8-də Vaşinqtonda, daha dəqiq desək Ağ Evdə Trampın birbaşa təşkilatçılığı ilə Ermənstanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması üçün saziş imzalandı. Tərəflər sülhə doğru addım atacaqlarına dair sənədə imza atdılar. Bununla da Rusiyanın məsələyə müdaxiləsini minimum endirdilər.

Rusiyanın məsələyə yeni şəkil vermək üçün çıxış yolu varmı? Qətiyyətlə "yox" demək istərdik, amma hesab etsək ki, bu ölkənin adı Rusiyadır və yer üçündən silinmək, bir dövlət olaraq mövcudluğuna son qoymaq istəyir, onda Moskvanın çıxış yolunu intiharda - Zəngəzura hərbi müdaxilədə görmək olar. Qısaca desək, Rusiya Zəngəzura - Orta dəhlizin cənub seqmentinə nəzarət etmək üçün arzuolunmaz hərəkətlərə qalxarsa sonu heç də yaxşı olmaz.

### İranın Zəngəzur iştahası

Zəngəzur məsələsi siyasi arenaya ayaq basandan Tehran müxtəlif rəngli xəttlər çəkməyə başlayıb. Əsasən "qırmızı xətt" dediyi "Zəngəzur dəhlizi" mövzusuna qarşı İranın bir fobiyası yaranıb. Düzdür, buna fobiya da demək olmaz, çünki, İranın farsmolla rejiminin yanaşmasında tarixi cizgilər axtarmağa dəyər. Ermənistanı dövlət kimi yaradanlarla İranın işbirliyi də özünü göstərməkdədir. Qars müqaviləsi ilə Naxçıvana olan iştahları ölən, Zəngəzuru isə Azərbaycandan qoparıb Ermənistana təhvil verməklə Türk dünyasını ikiyə bölən sovet rəhbərliyinin hərəkətləri yenicə taxt-taca yiyələnmiş Pəhləvilərin "ürəyindən tikan çıxarmışdı". İranın indiki molla rejimi də Pəhləvilərin Türk düşmənçiliyini məmuniyyətlə davam etdirirlər. Çünki İranın da mahiyyəti dəyişməyib, sadəcə formaya "əl gəzdirilib".

İran Zəngəzurdan nə istəyir, yaxud İranın Zəngəzurda nə işi? Burada yenə Ermənistan rəhbərlərinin yürütdüyü siyasət dövrəyə girir. Sırf düşmənçiliyi ucbatından həm Türkiyə, həm də Azərbaycan tərəfindən blokadaya alınmış Ermənistana 30 ildə nəfəslik verən İran İrəvana bunun bədəlini ödətdirməlidir, ya yox? Bu "nəfəsliyə" görə, Ermənistan İrana istədiyini verməyə çalışır. Ona görə də daha çox Ermənistan üçün "həyat yolu" olan "Zəngəzur dəhlizi"nin açılmasına qarşı olan İrana əks getməkdə İrəvan çətinlik çəkir. Amma bu dəfə sifariş yuxarılardan gəlib, Vaşinqton İrəvanın çox həssas nöqtəsindən vurub. ABŞ-nin əleyhinə getmək Ermənistana yaxşı heç nə vəd etmir. Tehran da bunu bilir, amma "uğurlu yol" göstərə bilmir. Ona görə də Amerikanın diqqətini məsələdən yayındırmaq üçün yenidən "nüvə danışıqları"nı ortaya atır

### Tehran səngərlərə qayıtmağa hazırdır

İran və Aİ-3 ölkələri (Böyük Britaniya, Fransa və Almaniya) avqustun 26-da "nüvə" danışıqlarının yeni raundu keçirəcək. Avropalılar Tehranın 12 günlük müharibənin kəsdiyi Vaşinqtonla dialoqa qayıtmasında təkid edirlər. Amma ali lider Əli Xamenei bunun əleyhinədir. Bütün bunların fonunda İran və İsrail arasında yeni qarşıdurma xəbərləri getdikcə artır. Sonuncu bu yaxınlarda ilk dəfə Tehranın yaxın müttəfiqləri olan Husilərdən kasetli raketlə vuruldu. İsrailin baş nazirinin ofisində izah edildiyi kimi, yəhudi dövləti özünü "istənilən tərəfdən" təhdidlərdən müdafiə etməyə hazırdır.

İran və Aİ3 arasında növbəti məsləhətləşmələr Cenevrədə keçiriləcək. Görüş 12 günlük müharibədən sonra ardıcıl ikinci olacaq. İslam Respublikası və Avropa ölkələri nümayəndələri arasında əvvəlki görüş iyulun 25-də İstanbulda keçirilib. Həmin vaxt BMT Təhlükəsizlik Şurasının 2015-ci il nüvə sazişi çərçivəsində Tehrandan qaldırdığı sanksiyaların mümkün qaytarılması müzakirə edilib. Aİ3 İranın ABŞ-la danışıqlar masasına qayıtmasını və ABŞ və İsrailin bombardmanları nəticəsində zəiflədiyi güman edilən nüvə proqramının hazırkı vəziyyətini aydınlaşdırmasında təkid edib. Bildirilib ki, Tehran İstanbulda nüvə problemi ilə bağlı prinsipial mövqelərini bir daha təsdiqləyib.

*Ardı Səh. 12*

Əvvəli Səh. 11

Bu gün İran İsrail və ABŞ-la yeni müharibəyə başlamaq istəmədiyinə dair siqnallar verir, lakin bunun müqabilində heç bir ciddi güzəşt təklif etmir. Britaniyanın ”The Telegraph” qəzetinin mənbələrinə görə, BMT Təhlükəsizlik Şurasının sanksiyalarının bərpasının və yeni regional qarşıdurmanın genişlənməsinin qarşısını almaq üçün Tehran kompromis kimi uranın zənginləşdirilməsi səviyyəsini 60%-dən 20%-ə endirmək variantına icazə verir. ”The Telegraph”ın mənbələrinə görə, bu variant İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Laricani tərəfindən lobbiçilik edilir. Sərt xətt tərəfdarları buna qarşıdır. ”The Telegraph” xüsusilə qeyd edir ki, Laricaninin müxalifəti nüfuzlu təhlükəsizlik agentliyi olan İslam İnqilabı Keşikçiləri Korpusudur (İİKK).

Aşağı zənginləşdirmə variantı çətin ki, İranın nüvə materialının təkmilləşdirilməsi üzrə milli proqramından tamamilə imtina etməsinin və yalnız xaricdən uranın alınmasının tərəfdarı olan Birləşmiş Ştatlara yaraşmaz. ABŞ prezidenti Donald Tramp artıq açıq şəkildə bildirib ki, bu məsələdə güzəştə getməyə hazır deyil, çünki hətta İslam Respublikasında mülki nüvə proqramı digər Yaxın Şərq dövlətləri üçün də risk yaradar və nüvə silahı yarışına səbəb olar. Bundan əlavə, bir sıra ehtimallara görə, dağıdılmış nüvə mərkəzlərinin dağıntıları altında qalmağa davam edən İranın artıq topladığı yüksək zənginləşdirilmiş uran ehtiyatlarının taleyi qaranlıq olaraq qalır.

Demək olmaz ki, İran elitası ”sıfır” zənginləşdirmə variantını nəzərdən keçirmir. Belə ki, bir həftə əvvəl İran prezidenti Məsud Pezeşkianın islahatçı dairələri təmsil edən tərəfdaşlarının açıq məktubu İranda geniş yayılıb. Onlar hakimiyyəti siyasi məhbusları azad etməyə, nüvə proqramının inkişafını dayandırmağa, sərt dini qanunları ləğv etməyə və SEPAH-ın təsirini zəifləməyə çağırıblar. 27 hərəkatın birləşdiyi İslahat Cəbhəsinin imzaladığı mesajda deyilir: ”İsraillə müharibənin nəticələri, tüğyan edən inflyasiya, istehsalda durğunluq, milli valyutanın çökməsi və kapitalın geri çəkilməsi ilə birlikdə iqtisadi iflic riskini həmişəkindən daha nəzərə çarpan edir”.

Məktubun yaratdığı rezonansdan sonra İranda hökumətin bütün qərar qəbuletmə mexanizminin əlində cəmləşən Əli Xamneyi avqustun 24-də buna cavab verməli olub. Beləliklə, o, ABŞ-la dialoqda böhranın həll oluna bilməyəcəyinə əminliyini bildirib. ”İranın əleyhdarları İranın Amerikaya tabe olmasını istəyirlər”, - deyə rəhbər izah edib. ”İran xalqı bu cür yanlış gözləntiləri olanlara bütün gücü ilə müqavimət göstərəcək”. Eyni zamanda o qeyd edib ki, ”ABŞ əleyhinə şüarlar səsləndirməməyi” və ”ABŞ-la birbaşa danışıqlar aparmağı” xahiş edən insanlar səthi fikirlərə sadiqdirlər: ”Bu məsələ (ABŞ ilə münasibətlərdə vəziyyət) həll olunmazdır”, - Xamenei əminliyini ifadə edib.

Bu arada, Yaxın Şərqdə İsrail və İran arasında növbəti müharibə hissi artmaqdadır. Avqustun 22-də Yəmənin ”Ənsar Allah” qruplaşması ilk dəfə olaraq yəhudi dövlətinə doğru kasetli raket atıb, İsrailin hava hücumundan müdafiə sistemi bu raketin qarşısını ala bilməyib. Buna cavab olaraq avqustun 24-də İsrail ordusu husilərin hərbi və enerji obyektlərinə, o cümlədən prezident sarayı kompleksinə, iki elektrik stansiyasına və yanacaq anbarına bir sıra zərbələr endirib. İsrail mediası iddia edir ki, komandanlıq hazırda Husilərin nəzarət zonalarında hədəf bankı genişləndirmək variantını nəzərdən keçirir. Yəhudi dövləti xüsusilə Ənsar Allahın arsenalının İranın köməyi ilə təkmilləşdirilməsindən narahatdır.

İsrail baş nazirinin ofisinin müşaviri Dmitri Gendelman, yəhudi dövlətinin İranı husilərin son atışlarına görə bilavasitə məsuliyyət daşıması ilə bağlı NG ilə söhbətində belə izah edib: ”İsrail heç bir tərəfdən ərazisinin atəşə tutulmasına icazə verməyəcək və vətəndaşlarını haradan gəlsələr də, bu təhlükələrdən qorumaq üçün əlindən gələni edir”.

Bu yaxınlarda İsrail Müdafiə Nazirliyinin baş direktoru Əmir Baram ABŞ-dakı israilli podratçılara havada 11-12 saat qala bilən əlavə iki KC-46 yanacaq dolduran təyyarənin alınması üçün müqavilə imzalamağı tapşırıb. Bu qərar, yerli medianın qeyd etdiyi kimi, İsrail Hərbi Hava Qüvvələrinin İran və Yəmən də daxil olmaqla, uzaq məsafələrdə əməliyyatlar aparmaq imkanlarını iki dəfədən çox artırmalıdır. Bu məlumatlara görə, yəhudi dövləti hazırda 10 il əvvəl dəyişdirilməsi nəzərdə tutulan köhnəlmiş ”Ram” yanacaqdoldurma təyyarələrindən istifadə edir. Media yeni sərəncamı İranla qarşıdurmanın növbəti mərhələsinə hazırlıq elementi kimi şərh edib.

# Zəngəzur kimindir?

## İran və Rusiyanın qanunsuz müdaxiləsi yalnız düşmənçilikdir



Tehran əmin edir ki, Yaxın Şərqdə istənilən, hətta ən neqativ ssenariyə hazırdır. Belə ki, İran İslam İnqilabı Keşikçiləri Korpusu komandirinin müavini Əli Fədavi bu günlərdə İsrailin ”Şir kimi insanlar” əməliyyatına başladığını elan etdiyi və İslam Respublikası ərazisindəki nüvə və hərbi obyektlərə hücum etdiyi vaxtda İran Silahlı Qüvvələrinin (QQ) hazırlığının ”iki ay əvvəlkindən qat-qat yüksək olduğuna” əmin olduğunu bildirib. ”Bu uğur (milli müdafiə sənayesinin) güc və imkanlarımızı gücləndirmək üçün lazım idi və xalq onun təzahürünü məsələn, 12 günlük müharibə zamanı, bütün dünyanın İranla qarşı-qarşıya gəlmək əzmində olduğu bir zamanda görür”, - Fədavi vurğulayıb. Ayrı-ayrılıqda Tehran ölkənin İsraillə atəşkəs vəziyyətində olmadığını və rəsmi olaraq iki regional rəqib arasında müharibənin davam etdiyini vurğulayır. İranın Ali Rəhbərinin baş hərbi müşaviri general-mayor Yəhya Rəhim Səfəvi bu yaxınlarda qeyd edib: ”Bizimlə ABŞ və ya İsrail arasında heç bir protokol, qayda və ya saziş imzalanmayıb. O, əlavə edib: ”Məncə, daha bir müharibə ola bilər, ondan sonra müharibələr olmayacaq”.

### Lavrov iranlı həmkarı ilə nə danışıb?

Lavrov və Əraqçi İranın nüvə proqramı və Yaxın Şərqdəki vəziyyəti müzakirə ediblər. Rusiyanın xarici işlər naziri Sergey Lavrov İranın xarici işlər naziri Abbas Əraqçi ilə telefon danışığı aparıb. Əraqçi Böyük Britaniya, Almaniya və Fransadan olan həmkarları ilə İranın nüvə proqramı ətrafında nizamlanma məsələlərinə dair telefon danışığının nəticələri barədə Lavrova məlumat verib. Lavrov, Xarici İşlər Nazirliyinin qeyd etdiyi kimi, Rusiyanın Birgə Hərtərəfli Fəaliyyət Planı ətrafında vəziyyətin normallaşdırılması və Yaxın Şərqdə gərginliyin azaldılması üçün diplomatik səylərə töhfə verməyə hazır olduğunu təsdiqləyib. Hər iki ölkənin xarici işlər nazirləri ikitərəfli gündəlikdəki prioritet məsələlərə, o cümlədən Rusiya və İran arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Müqaviləsinin həyata keçirilməsinə də toxunublar.

Bu arada, İranın Məqsədini Müşahidə Şurasının üzvü Seyid Məhəmməd Sədr sensasion bəyanatla çıxış edərək Moskvanı son 12 günlük münaqişə zamanı Təl-Əvivə kəşfiyyat məlumatı verməkdə ittiham edib. O, müsahibəsində bildirib ki, Rusiya İranın hava hücumundan müdafiə sistemlərinin yeri ilə bağlı İsrailə məlumat verib. Eyni zamanda Sədr etiraf edib ki, Moskva İsrailin İrana hücumlarını rəsmən pisləyib, lakin onun sözlərinə görə, bu, kifayət deyil. Şura üzvü vurğulayıb ki, Rusiya və İran ciddi əlaqələr saxlamalı olsa da, artıq ölkələr arasında tam etimad mümkün deyil.




### Yenə də Zəngəzur dəhlizi...

İranın ali dini liderinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti sosial media hesabında yazıb ki, Qafqaz tarixən İran üçün strateji təhlükəsizlik buferi kimi fəaliyyət göstərib. İranın Ali Rəhbərinin baş müşaviri qeyd edib ki, Qafqaz bu rolu Əhəmənilər fars kralı Böyük Kirin dövründən oynayıb. O, həmçinin vurğulayıb ki, yunan tarixçisi və coğrafiyaçısı Herodotun əsərlərinə görə, Kir İranı köçəri tayfaların basqınlarından qorumaq üçün Qafqaz regionunda istehkamlar tikib və bununla da bölgənin müdafiə sərhədi kimi qalıcı rolunu möhkəmləndirib.

Vilayəti avqustun 9-da Tasnim agentliyinə müsahibəsində Azərbaycanı Naxçıvanla birləşdirəcək Zəngəzur dəhlizi ideyasını rədd edərək, dəhliz planının həyata keçirilməsinin Cənubi Qafqazın təhlükəsizliyini təhlükə altına atacağı barədə xəbərdarlıq edib. O, həmçinin vurğulayıb ki, Moskvanın Tehrana qoşulub-qoşulmamasından asılı olmayaraq İran Qafqaz regionunda Amerika dəhlizinin yaradılmasına mane olacaq.

Digər tərəfdən, ABŞ və Aİ kimi aparıcı oyunçular daxili siyasətlərində müəyyən nüfuzlu ünsürlərin təsiri ilə Türkiyəni Qərbi və Mərkəzi Asiyadakı inteqrasiya prosesindən kənarlaşdırmağa cəhd edə bilərlər. Avqustun 8-də Ermənistanın baş naziri Nikol Paşinyan və Azərbaycan prezidenti İlham Əliyev ABŞ prezidenti Donald Trampın vasitəçiliyi ilə Vaşinqtonda görüşüb və yekun sülh sazişinin çərçivəsini əks etdirən birgə bəyannamə imzalayıblar. Birgə bəyannamədə ən diqqətçəkən addım ”Azərbaycan və Naxçıvanı birləşdirən Zəngəzur dəhlizi”nin istismar hüququnun 99 il müddətinə ABŞ-a verilməsi oldu. Bu barədə türkiyəli ekspertlər Abdullah Kabaoğlu və Ahmet Zahit Güneyin məqaləsində deyilir.

### Məqalədə qeyd olunur:

”Bu hissə ABŞ-a yönəlmiş Qərb iqtisadi sistemi üçün Mərkəzi Asiyaya qapı ola biləcək unikal marşrutu təmsil edir. Sovet İttifaqının dağılmasından sonra yaranan bu potensial Azərbaycan və Ermənistan arasında siyasi gərginlik və bununla bağlı iqtisadi qeyri-müəyyənlik ilə məhdudlaşır. Son zamanlar Mərkəzi Asiyada geosiyasi tarazlığın dəyişməsi Qərbin regiona artan marağını daha da artırıb. Rusiya-Ukrayna müharibəsinin ağır siyasi və iqtisadi xərcləri Rusiyanın regiondakı ənənəvi təsirini ciddi şəkildə sarsıtdı. Paralel olaraq, Çinin regionda getdikcə artan iqtisadi təsiri Mərkəzi Asiya türk respublikaları üçün kritik əhəmiyyət kəsb edir, çünki o, regionda rolu getdikcə zəifləyən Rusiyaya alternativdir.

Üstəlik, Çinin ”Bir kəmər, bir yol” təşəbbüsünün bir hissəsi kimi Avropaya uzanan kritik infrastruktur layihələrinin bu regionda cəmləşməsi Çinin Rusiya tərəfindən boşaldılan məkanı doldurmaq vəzifəsini daha da asanlaşdıra bilər. Bu vəziyyət qlobal rəqabət şəraitində Mərkəzi Asiyanın Çinin təsiri altına düşməsinin qarşısını almaq üçün ABŞ və onun Qərb müttəfiqlərini regionda daha fəal xarici siyasət yürütməyə vadar edir. İstismar hüququ bu yaxınlarda bağlanmış müqavilə əsasında Amerika şirkətlərinə verilən Zəngəzur dəhlizi bu strategiyaya uyğun olaraq Qərbin Mərkəzi Asiyaya uzanan dəhlizinə çevrilə bilər.

Qərb dünyasının Mərkəzi Asiyaya yenidən marağı Türkiyənin türk cümhuriyyətləri ilə çoxdan gözlənilən əlaqələrini inkişaf etdirmək üçün mühüm imkanlar açır. Soyuq müharibə başa çatdıqdan sonra Türkiyənin xarici siyasətinin prioritetinə çevrilən bu ölkələrlə əlaqələr hazırda arzu olunan səviyyədədir. Buna əsas maneə isə, ilk növbədə, Rusiya və İranın regionda dominantlıq etmək cəhdi ilə bağlıdır. Bu iki oyunçu tarixən region ölkələrini Türkiyə mərkəzli ”Orta Dəhliz”dən deyil, öz ərazilərindən keçən Şimal və Cənub dəhlizlərindən istifadə etməyə təşviq etmək üçün diplomatik fəaliyyətdə fəal iştirak ediblər. Lakin Rusiya-Ukrayna müharibəsinin və İrana qarşı 12 günlük müharibənin dağıdıcı nəticələri Zəngəzur dəhlizinin açılmasına imkan yaradıb, Türkiyə üçün Orta Asiyaya effektiv yol açıb.

Saziş çərçivəsində dəhlizin istismarı hüquqlarının Amerika şirkətlərinə verilməsi Rusiya və İranın yaxın gələcəkdə təsirlərini bərpa edə biləcək potensial destruktiv təşəbbüsləri ilə mübarizədə Türkiyənin strateji tarazlığını əhəmiyyətli dərəcədə gücləndirəcək. Beləliklə, Rusiya və İrandan gələn təhdidlərdən uzaq, fasiləsiz quru rabitəsinin təmin etdiyi sabitlik sayəsində Türkiyə həm Mərkəzi Asiya bazarlarında təsirini artıra, həm də əhəmiyyətli iqtisadi faydalar əldə edə bilər. Bu maliyyə faydalarından əlavə, bu proses Türkiyəyə türk cümhuriyyətləri ilə çoxdan gözlənilən sosial-iqtisadi inteqrasiyasını görünməmiş səviyyəyə çatdırmaq imkanı da verir.

ABŞ və Aİ kimi aparıcı oyunçular öz daxili siyasətlərində müəyyən nüfuzlu ünsürlərin təsiri ilə Türkiyəni Qərb və Mərkəzi Asiyada inteqrasiya prosesindən kənarlaşdırmağa cəhd edə bilərlər. Türkiyənin əhəmiyyətli coğrafi üstünlüyü bu fürsəti zəiflədə bilsə də, ABŞ və Yunanıstandakı İsrail lobbisi, eləcə də Aİ-dəki Kiprin Rum administrasiyasının rəhbərlik etdiyi ünsürlər Türkiyənin regionlararası inteqrasiyada payını mümkün qədər minimuma endirməyə çalışa bilərlər. Zəngəzur dəhlizinin yeni statusu Türkiyəyə 30 ildən artıqdır gözlədiyi fürsəti verir, lakin onun həyata keçirilməsi yalnız fəal, çoxşaxəli və ardıcıl diplomatiya ilə mümkün olacaq”.

**V.VƏLİYEV**

# Azərbaycanın uğurlarından doğan ERMƏNİ NARAHATLIĞI

***Rusiya ilə Azərbaycan arasında iqtisadi ittifaq güclənir və bu, Moskvanın Bakıya ciddi marağının davam etdirməsi və artması deməkdir. Ola bilsin ki, yaxın gələcəkdə iki ölkə arasında münasibətlərin tədricən istiləşməsinin hələ çoxları şahidi olacaqlar. Xüsusən də ermənilər bu hadisələrin şahidi olduqca özlərini quyunun dibindəki kimi hiss edirlər və çox narahat olduqlarını da gizlətmirlər. Bu, məhz Azərbaycanın uğurlarından doğan erməni narahatlığıdır...***




Bəli, həqiqətən də arzularını reallıqdan ayıra bilmək vacib şərtdir və qaçılmazdır. Məsələ burasındadır ki, belə bir "qabiliyyətin" olmaması böyük problemlərə səbəb ola bilər və bu gün erməni cəmiyyəti bunu daha yaxşı hiss etməkdədir. Məsələn, konkret bir misal üzərində düşündükdə məsələnin nə yerdə olduğu bəlli olur. Diqqətə çatdıraq ki, erməni cəmiyyətində və siyasi dairələrində, ələlxüsus da Ermənistana məxsus mətbuat səhifələrində məhz tez-tez "Rusiya Cənubi Qafqazı nəhayət ki, itirdi" ifadəsi ilə rastlaşmaq olar. Ancaq son hadisələr göstərir ki, bu cür fikirlər, iddialar sadəcə olaraq, reallıqdan daha çox arxayınlığa meyil etməyə həvəsli toplumun arzularıdır.

Haylar özləri də şahidi oldular ki, avqustun 23-də Rusiya və Azərbaycanın xarici işlər nazirləri, Sergey Lavrov və Ceyhun Bayramov arasında telefon danışığı olub. Şahidi oldular ki, tərəflər ikitərəfli və çoxtərəfli gündəliyin geniş spektrini, yəni, əməkdaşlığın siyasi, iqtisadi, humanitar aspektlərini, həmçinin regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər, hansı ki, bu barədə mətbuat səhifələrimizdə də qeyd olunub. Elə məhz bu şəkildə qeyd olunması da görünür, hayları qıcıqlandırıb. Məsələ burasındadır ki, bu cür müntəzəm təmasların olması faktının özü belə göstərir ki, Moskva və Bakı məhz hayların arzuladıqları "uzaqlaşmanın" əvəzinə, daha da yaxınlaşmaqdadır. Xüsusən də, ötən günlərdə Həştərxanda iqtisadi əməkdaşlıq üzrə Rusiya-Azərbaycan hökumətlərarası komissiyasının iclasının keçirilməsi özü də ermənilərin əhvalını kifayət qədər pozub. Baş nazirin müavinləri Aleksey Overçukun və Şahin Mustafayevin məhz komissiyanın 23-cü iclasının yekunlarına dair protokol imzalamaları da hayları narahat etməyə başlayıb.

Diqqətə çatdıraq ki, qeyd olunanlar qətiyyən formallıq deyil, əksinə, iqtisadi əlaqələrin dərinləşməsi üçün konkret vasitələrdir. Rusiya tərəfinin özünün belə məlumatına görə, hazırda Azərbaycanda Rusiya kapitallı 1800-ə yaxın şirkət fəaliyyət göstərir. Bundan başqa, elə yenə də Rusiya tərəfinin yaydığı məlumata əsasən, Rusiya Azərbaycanın ümumi xarici ticarət dövriyyəsinin təxminən 10%-ni təmin etməklə Azərbaycanın üç ən böyük ticarət tərəfdaşı sırasındadır. Belə görünür ki, Azərbaycanın real addımları məhz Rusiya ilə getdikcə daha sıx əməkdaşlığa səbəb olur və gələcək perspektivlərdən xəbər verir. Ələlxüsus da iqtisadi birlik güclənir və bu da o deməkdir ki, Moskva Azərbaycana bundan sonra da ciddi şəkildə daha artıq maraq göstərəcək və bu maraq da öz növbəsində münasibətlərə müsbət istiqamətdə təsirsiz ötüşə bilməz. Hətta hayları ən çox narahat edən odur ki, yaxın gələcəkdə Rusiya və Azərbaycan olmaqla, iki ölkə arasında münasibətlərin tədricən "istiləşməsi" fonunda özlərini tamamilə kənarda görürlər.Bir müddətdir ki, ermənilər məhz əvvəllər qeyri-mümkün hesab etdikləri bir şeyin mümkün olduğunu gördüklərinə görə narahatdırlar. Ona görə narahatdırlar ki, Azərbaycanla Rusiya arasında yaratmaq istədikləri soyuqluğun əksini görürlər. Başa da düşürlər ki, nəinki hansısa anlaşılmazlıq, uydurduqları soyuqluqlar belə keçmişdə qalmaqda, arxivə atılmaqdadır. Həm də məhz rus təbliğatçılarının bundan sonra Azərbaycandan "güclü və müstəqil dövlət" nümunəsi kimi danışacaqlarından belə haylar qorxuya düşüblər. Çünki bilirlər ki, həqiqətən də Azərbaycan bir müstəqil dövlər olaraq, nümunədir və bunu da ruslar gec-tez etiraf etməli olacaqlar. Belə çıxır ki, haylar bunu heç zaman istəməyiblər və bu vəziyyət onları olduqca narahat edir.

Məntiqi olaraq belə bir sual yaranır ki, görəsən Ermənistan nə fikirləşir? Görəsən, erməni cəmiyyəti nə etməlidir bu məqamda? Əslində, haylar da yaxşı bilirlər ki, birtərəfli şəkildə Qərbə meyl etmək bu vaxta qədər qətiyyən özünü doğrulda bilməyib. Haylar indi də elə hesab edirlər ki, guya həm Rusiyanın maraqlarını, həm də Avropanın imkanlarını nəzərə alan balanslaşdırılmış xarici siyasət qurmaq daha ağıllı olardı. Hesab edirlər ki, ancaq bunun üçün başqa bir hökumət lazımdır. Yəni, Parisdən və Brüsseldən sifariş almağa öyrəşmiş bir hökumət deyil, ölkənin milli maraqlarını və strateji gələcəyini düşünən hökumət nəzərdə tutan bir hökumət.

Məsələ burasındadır ki, Azərbaycandan fərqlin olaraq, ermənilər istədikləri hökuməti, hakimiyyəti özlərində görə bilmirlər. Sadəcə olaraq, indi sırf nəzəri əsaslarla düşünürlər. Hətta onu da düşünürlər ki, onlarda Ermənistanın bütün mümkün milli maraqlarına çoxdan xəyanət edən bir hökumət mövcuddur, lakin ondan başqasına da ümidləri belə yoxdur. Ona görə də zənn edirlər ki, ümummilli müqavimət görməyərək, məhz həmin hökumət də bu istiqamətdə, yəni uyğunsuz şəkildə fəaliyyətini davam etdirməkdədir. Artıq "Azərbaycan və Türkiyə ilə münasibətlərin qurulmasının Ermənistan üçün çox faydalı olması" haqda söhbətləri eşitdiklərində də lap sıxılırlar. Hər zaman özləri üçün düşmən bəllədikləri ölkələrlə, bir millətlə münasibətlərdən fayda anlayışı belə onları bərk qıcıqlandırır. Məhz bu fonda da özlərini bundan sonra da uduzan tərəf hesab etməkdədirlər. Doğrudur, həqiqətən də istər Azərbaycan, istərsə də Türkiyə ilə münasibətlər fonunda Ermənistanın bu vaxta qədər dirəndiyi dalandan çıxması üçün əsas şərtdir, amma məsələ burasındadır ki, bunu haylar nə başa düşmürlər, nə də başa düşmək istəmirlər. Elə buna görə də narahatlıqlarını qətiyyən gizlədə bilmirlər.

Əslində, tarix boyu Azərbaycanın uğurlarının və nailiyyətlərinin erməniləri qıcıqlandırdığı və narahat etdiyi danılmazdır. Çünki uzun illər boyu xalqımız bunun şahidi olub. İstər Sovet hakimiyyəti dövründə, istər ondan əvvəlki dönəmdə və istərsə də müstəqillik dönəmində Azərbaycanın qələbələri, uğurları haylar üçün baş ağrısından, narahatlıqdan başqa bir şey olmayıb. Səbəb də bəllidir. Bəlli olan odur ki, haylar məhz özlərinə düşmən kimi gördüklərinin uğurlarından qətiyyən rahatlıq tapa bilmirlər. Hər zaman da məğlubiyyət acısı ilə yaşayaraq, daim narahatlıq keçirirlər. Halbuki, mehriban qonşuluq münasibətləri qurmaqla, düşmənçiliyə son qoymaqla bu narahatlıqdan yaxa qurtara da bilərlər. Görünür, hələ də yaxa qurtara bilməyiblər. Çünki nə Azərbaycanı bundan sonra da uğurlardan məhrum edə bilən deyillər, nə də düşmənçilik hissinə qalib gələ, sülh şəraitində yaşamaq istəyinə sahib çıxan olmayıblar deyə hələ də narahatlıqları davam etməkdədir. Ümumiyyətlə, çiçəklənməkdə, dünya ölkələri ilə münasibətlərini, əlaqələrini, əməkdaşlıqlarını daha da yaxşılaşdırmaqda və buna görə də inkişafda olan ölkəmizin, Azərbaycanın uğurlarından doğan erməni narahatlığı göz önündədir.

*İnam Hacıyev*

# Laçın Şəhəri Günü: tarixi ədalətin bərpası

***Azərbaycanın dövlətçilik tarixində Laçın rayonunun xüsusi yeri vardır. Qarabağ və Şərqi Zəngəzurun mühüm hissəsini təşkil edən bu qədim diyar həm təbii-coğrafi mövqeyi, həm də strateji əhəmiyyəti ilə seçilir.***



***Şəfa QURBANOVA, Azərbaycan Milli Elmlər Akademiyasının dissertantı***

Tarix boyunca Laçın Azərbaycan xalqının mədəniyyətində, iqtisadiyyatında və siyasi həyatında mühüm rol oynamışdır. Lakin XX əsrin sonlarında baş verən işğal hadisələri rayonun taleyində ağır fəsadlar yaratmış, əhalinin öz yurd-yuvasından didərgin düşməsinə səbəb olmuşdur. Məhz bu səbəbdən Laçının işğaldan azad olunması Azərbaycan tarixində tarixi ədalətin təntənəsi kimi qiymətləndirilir.

1992-ci il mayın 18-də Ermənistan silahlı qüvvələri Laçın rayonunu işğal etmişdir. Bu hadisə təkcə hərbi baxımdan deyil, həm də strateji və siyasi baxımdan ölkə üçün böyük fəlakət olmuşdur. Laçının ermənilərə təhvil verilməsinin arxasında məkrli siyasi niyyətlər dayanmışdı. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı. Hakimiyyəti istənilən yollarla ələ keçirmək üçün ən çirkin əməllərə də əl atdı, Şuşanı, Laçını demək olar ki, düşmənə təhvil verdi. Hər bir kəndin, şəhərin işğala məruz qalması böyük faciə idi, amma Laçının işğalı strateji nöqteyi-nəzərindən böyük bir sınaq idi, böyük bir fəlakət idi. Çünki Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılırdı və bizim sonrakı itkilərimizin başlanğıcı məhz Şuşa və Laçının itirilməsi idi və Azərbaycan torpaqlarının sonrakı işğalının təməli qoyulmuşdur.

İşğal dövründə Laçının əhalisi etnik təmizləməyə məruz qalmış, 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş və ya itkin düşmüşdür. Rayonun infrastrukturuna, sosial və mədəni obyektlərinə ağır zərbələr vurulmuşdur. Bununla yanaşı, işğalçı tərəf beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq Laçında qeyri-qanuni məskunlaşdırma siyasəti həyata keçirmişdir. Ermənistan hökuməti əsasən Suriyadan və digər ölkələrdən gətirilən erməni əsilli qaçqınları Laçında yerləşdirərək demoqrafik tərkibi dəyişməyə cəhd etmiş, rayonun təbii resurslarını isə talan edərək iqtisadi qazanc mənbəyinə çevirmişdir.

Azərbaycan Ordusunun 2020-ci il Vətən müharibəsində qazandığı qələbə nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən, Laçın rayonu 1 dekabr 2020-ci ildə Azərbaycana təhvil verilmişdir. 2022-ci ilin 26 avqustunda isə Laçın şəhəri, Zabux və Sus kəndləri də tam şəkildə nəzarətə götürülmüşdür. Bu tarixdən etibarən hər il 26 avqust "Laçın şəhəri günü" kimi qeyd olunur. Prezident cənab İlham Əliyevin 2023-cü ildə imzaladığı Sərəncama əsasən işğaldan azad olunmuş bütün ərazilər üzrə şəhər günləri təsis edilmişdir ki, bu da həmin torpaqların tarixi yaddaşımızda xüsusi yerini təsdiqləyir.

Bu gün Laçında genişmiqyaslı bərpa və quruculuq işlərinə start verilmişdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırlanan Baş plan əsasında şəhərin müasir konsepsiyası formalaşdırılmışdır. Laçında həm fərdi yaşayış evləri, həm də çoxmənzilli binalar tikilir, sosial obyektlər, məktəblər, mədəniyyət və turizm mərkəzləri yaradılır. Rayonun enerji potensialı da sürətlə inkişaf etdirilir. Güləbird, Mişni, Alxaslı, Zabux və digər su elektrik stansiyaları yenidən qurularaq istifadəyə verilib. 2025-ci ildə açılışı keçirilən "Aşağı Malıbəyli" və "Mirik" SES-ləri isə Azərbaycanın "yaşıl enerji" strategiyasına uyğun olaraq həm təbii qaza qənaət edir, həm də karbon tullantılarının azaldılmasına şərait yaradır.

Laçın Beynəlxalq Hava Limanının inşası bölgənin beynəlxalq statusunu artıran ən mühüm layihələrdən biridir. 2025-ci ildə istifadəyə verilən bu hava limanı Azərbaycanın dəniz səviyyəsindən ən hündürdə yerləşən aeroportu kimi regionun turizm və logistika imkanlarını genişləndirir. Bununla yanaşı, Kəlbəcər-Laçın avtomobil yolunun, çoxsaylı tunellərin və körpülərin inşası bölgənin nəqliyyat infrastrukturunu köklü şəkildə dəyişir. Laçının bərpası təkcə infrastrukturla məhdudlaşmır. Şəhərdə yeni məktəblər, uşaq bağçaları, xəstəxanalar, muzeylər və istirahət məkanları yaradılır. 2025-ci ildə istifadəyə verilmiş "Laçın İstirahət Kompleksi" həm yerli əhalinin, həm də turistlərin ehtiyaclarını qarşılamaq məqsədi daşıyır. Heyvandarlıq, arıçılıq və balıqçılıq sahələrində də mühüm addımlar atılmışdır. "Həkəri Balıq Təsərrüfatı" regionda nərəyetişdirmə üzrə ilk təsərrüfat kimi fəaliyyət göstərir. Bu müəssisə gələcəkdə həm daxili bazarı təmin edəcək, həm də ixrac potensialını artıracaq.

Laçının işğaldan azad edilməsi və yenidən qurulması Azərbaycan dövlətinin gücünün, xalqımızın birliyinin və iradəsinin bariz nümunəsidir. Burada həyata keçirilən layihələr yalnız iqtisadi və sosial inkişaf məqsədi daşımır, həm də milli yaddaşın bərpasına xidmət edir. Laçın bu gün həm tarixi-mədəni irsin qorunması, həm də müasir inkişaf modellərinin tətbiqi ilə seçilir.

Azərbaycan dövlətinin strateji hədəfi Laçını və ümumilikdə Qarabağ-Şərqi Zəngəzur bölgəsini regionun nümunəvi məkana çevirməkdir. Prezident cənab İlham Əliyevin ifadə etdiyi kimi, bu torpaqlar "Azərbaycanın cənnət guşəsinə" çevrilməkdədir. Laçının inkişafı həm milli qürurumuzun, həm də gələcək nəsillərə ötürüləcək əbədi vətən sevgisinin parlaq simvoludur.

Bu gün Laçın yalnız bir coğrafi məkan deyil, həm də milli dirçəlişimizin, azadlıq amalımızın və bərpa olunmuş ədalətin simvoludur. Burada ucalan hər yeni bina, salınan hər bir yol, açılan hər bir müəssisə xalqımızın gələcəyə inamının təntənəsidir. Dağların əzəməti, çayların səsi, yenidən həyat qazanmış kəndlərin işıqları bir daha sübut edir ki, torpaq yalnız üzərində yaşayan xalqın varlığı ilə diridir. Laçın indi bir daha doğma sığınacaq, ümid çırağı və milli kimliyimizin əbədi qalasıdır. O, həm tariximizin ağrı-acılarını, həm də zəfər sevincini öz qoynunda yaşadan müqəddəs bir məkan olaraq gələcək nəsillərə əmanət ediləcəkdir.

# Koreya yarımadası 3-cü dünya müharibəsinin başlanğıc nöqtəsi ola bilər

***Dünyanın ən qaynar nöqtələrindən biri də Koreya yarımadasıdır. Hətta bəzən belə bir fikir səsləndirilir ki, üçüncü dünya müharibəsinin başlanğıc nöqtəsi Koreya yarımadası ola bilər. Baxmayaraq ki, bəzi siyasi şərhçilər, hərbi ekspertlər üçüncü dünya müharibəsinin Rusiya-Ukrayna müharibəsinin sərhədlərinin genişlənməsi ilə başlaya bilər. Hətta bununla bağlı sübutlar, dəlillər də göstərilir. Misal üçün Rusiya prezidenti V. Putin bildirmişdir ki, "Rusiyasız dünya bizim nəyimizə lazımdır" deməklə son mərhələdə nüvə silahı ilə dünyanın axırına çıxa biləcəklərinə eyham vurmuşdur. Eyni hədələyici tonla Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev də çıxış edib. Belə demək olarsa D.Medvedev daha açıq hədələrlə çıxış edib. D.Medvedev qeyd edib ki, hər yeni ultimatum Rusiya Federasiyası tərəfindən ABŞ-la təhdid və "müharibəyə doğru addım" kimi qəbul edilir: "Biz təhdidlərə nüvə zərbəsi ilə cavab verə bilərik".***



Donald Tramp isə hədəyə cavab olaraq, Rusiya ilə mümkün nüvə münaqişəsinə hazır olduğunu bildirib. Bunun ardınca D.Trampın əmri ilə ABŞ-ın iki nüvə sualtı qayığı müvafiq ərazilərdə yerləşdirilib. Lakin ABŞ mətbuatı Trampın sözlərinə şübhə yanaşırlar. Mətbuat yazır ki, ABŞ-ın belə sualtı qayıqları dünya okeanları ətrafında müntəzəm olaraq hərəkət edir. D.Tramp birinci prezidentliyi dövründə Şimali Koreya lideri Kim Çen Inınə qulaqburması vermək həvəsinə düşmüş və KXDR sahillərinə üç təyyaredaşıyan zərbə qrupu göndərmişdir. ABŞ-ın nüvə proqramları üzrə eksperti Hans Kristensenin fikrincə, Donald Trampın "nüvə" bəyanatı Rusiya ilə münasibətlərin daha da gərginləşəcəyi təqdirdə onun nüvə silahına əl atacağı ilə bağlı gözləntiləri gücləndirərək "öhdəlik tələsi" yaradır. Amerika nüvə sualtı qayıqları bombardmançılar və quru raketləri ilə birlikdə nüvə üçlüyünün bir hissəsidir. Onlar Rusiyadakı hədəflərə nüvə başlıqlı raketlər atmağa həmişə hazırdırlar. Buna görə də onların yenidən yerləşdirilməsinə ehtiyac yoxdur.

Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin dosenti, politoloq, Gevorq Mirzəyan isə hesab edir ki, Şimali Koreya nüvə başlığı hazırlayıb və onu ABŞ-a çatdırmaq gücünə malikdir. Onun sözlərinə görə, Şimali Koreya raketləri artıq ABŞ-ın Şərqi Asiyadan 3 min kilometr aralıda yerləşən Quamı adasını vura bilər. Buna görə də bəzi amerikalı ekspertlərin nöqteyi-nəzərindən, Los-Ancelesin daxil olmaqla Quama təhlükə qarşısındadır. Çünki bu ərazilərə zərbə endirmək əlverişlidir Bununla belə, müharibə gözlənilməz risklər daşıyır və bütün regiona dağıntılar gətirə bilər ki, bu da təbii ki, Vaşinqtonda nəzərə alınır. Ona görə də, Cənubi Koreya vasitəsi ilə gərginliyi azaltmağa çalışır. Ümumiyyətlə, zaman-zaman tərəflər qarşıdurmanı aradan qaldırmaq üçün təşəbbüslərlə çıxış ediblər.

## Şimali Koreya nüvə başlıqları ilə hücum etsə, ilk zərbədən 25 milyon insan həyatını itirə bilər

2018-c il aprelin 27- də Şimali Və Cənubi Koreya sülhə daha yaxın olublar. O zaman Cənubi Koreya Prezidenti Mun Çje İn və Koreya Xalq Demokratik Respublikasının başçısı Kim Çen In arasında sərhəd kəndi olan Pxanmuncomda görüşüb, danışıqlar aparmışlar. Danışıqların birinci mərhələsi zamanı Şimali Koreya liderinin bacısı Kim Yo Çjon iki dövlətin birləşdirilməsini təklif etmiş və bu birliyin tez zamanda reallaşmasının vacibliyini söyləmişdir. Buna cavab olaraq Cənubi Koreya tərəfi ilkin olaraq dəmir yolu və avtomobil yollarının birləşdirilməsini təklif etmişdilər. Lakin sonradan Cənubi Koreyada yaranan daxili qarşıdurma, prezidentə qarşı xalq etirazları sülh danışıqlarını alt-üst etmişdir.

Hərbi ekspertlərin gəldiyi qənaətə görə, əgər Şimali Koreya ABŞ-a ilk zərbəni endirə bilsə, o zaman ətraf şəhər və qəsəbələr daxil olmaq, Los-Ancelesdən ümumilikdə 25 milyon insan həyatını itirəcək. Sonrakı mərhələdə müharibə uzanarsa, bu zaman ABŞ-ın paytaxtı Vaşinqiton şəhəri real təhlükə ilə üzləşəcək. Təbii ki, buna cavab olaraq ABŞ Şimali Koreyanı 5-7 saat ərzində paytaxt Seul daxil olmaqla böyük hissəsini məhv edə bilər. Hazırda tərəflərarası gərginlik son illərin ən gərgin nöqtəsinə yüksəlib. Şimali Koreya ilə Cənubi Koreya arasıda gərginliyin ötən əsrin əllinci illərində yaranana gərginliklə eyniləşdirirlər. Koreyaşünaslıq üzrə ekspert, Sankt-Peterburq Dövlət Universitetinin dosenti İrina Lantsova bildirib ki, hər iki tərəfin ritorikası sərtləşib, lakin bu təbiidir - gərginlik artır. İnanıram ki, KXDR mütləq birinci Amerika hədəflərinə hücum etməyəcək və bunun ardınca zərbə endirsə, onu ABŞ həyata keçirəcək.

Bu yaxınlarda Şimali Koreyanın Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda ölkəsinin ABŞ-a zərbə endirməyə hazır olduğunu açıq şəkildə bəyan edib: "KXDR Amerikadan başqa heç kimi təhdid etmək niyyətində deyil. Ballistik raketlərimizin son buraxılışları dünyaya göstərdi ki, bütün kontinental Birləşmiş Ştatlar bizim əlimizdədir".

Bəyanatda o da vurğulanır ki, hücum Şimali Koreya lideri Kim Çen In icazə verən kimi başlaya bilər. ABŞ prezidenti Donald Tramp Yaponiyanın baş naziri Şinzo Abe ilə telefon danışığı zamanı Şimali Koreyanın Xarici İşlər Nazirliyinin yaydığı bəyanata münasibət bildirib. Qeyd edib ki, ABŞ özünü müdafiə etməyə və Şimali Koreyadan gələn istənilən təhlükəyə cavab verməyə hazırdır. Bunla yanaşı D.Tramp Şimali Koreyadan artan nüvə təhlükəsi ilə mübarizədə ABŞ-Cənubi Koreya hərbi ittifaqının əhəmiyyətinə də xüsusi önəm verir. Cənubi Koreya Şimaldan gələn hər cür təhlükələrə baxmayaraq özünün nüvə arsenalını inkişaf etdirmək niyyətində olmadığını bildirib, Şimali Koreyanın nüvə gücünə malik qitələrarası ballistik raketlərə can atmasının artan beynəlxalq təhlükə yaratdığı barədə xəbərdarlıq edib.



## Necə oldu ki, bir millət iki yerə bölündü?

Məlumdur ki, Şimali Koreya ilə Cənubi Koreya arasında gərgin münasibətlər 1950-ci il iyunun 25-də müharibənin başlanması ilə nəticələndi. Onu da qeyd etmək lazımdır ki, Koreyanın dövlətçilik tarixi qədim dövrlərə gedib çıxsa da, daim müharibə və münaqişələrlə zəngin olan ərazilər olub. Sonuncu dəfə, yəni 1910-cu ildə Koreya Yaponiya tərəfindən işğal edilmişdir. O zaman yarımadadakı hakimiyyət yapon general-qubernatoruna məxsus idi.

1910-cu ildə Yaponiya marşalı Terauti Masatake Koreyanın ilk general-qubernatoru təyin edildi. O, yarımadanın modernləşdirilməsi üçün qətiyyətli siyasət yürütməyə başladı. Beləliklə, onun əmri ilə Koreyada bir neçə min məktəb açıldı, burada, xüsusən də yapon dili və yapon ədəbiyyatı öyrənildi. Terauti Koreyada torpaq islahatı həyata keçirdi: Torpaq kadastrı yaradıldı, lakin o, yazılı sənədlər əsasında tərtib edildi, Koreyada torpaq münasibətləri çox vaxt adi qanunlar ilə tənzimləndi. Koreya mənbələrinə görə, bu, Koreya kəndlilərinin əhəmiyyətli bir hissəsi tərəfindən torpaq itkisinə səbəb oldu. 1939-cu ildə yapon general-qubernatoru "Adların dəyişdirilməsi haqqında qanun" verdi. Fərmandan sonra ilk altı ayda Koreyalı ailələrin 80,5%-nin adlarını dəyişdirdi. 1945-ci ildə Yaponiyanın danışıqsız təslim olmasından sonra Koreyada yapon ağalığı başa çatdı. İkinci Dünya müharibəsindən sonra ABŞ və SSRİ ölkənin birgə idarə edilməsi haqqında müqavilə imzaladılar. Hər iki ölkənin sərhəddi 38-ci şimal paralelindən keçməli idi. 1945-1948-ci illərdə Koreya yarımadasının şimalı sovet zonası, cənubu isə amerikan zonası olur. 1948-ci ilin avqustun 15-də Koreya yarımadasının cənubunda, amerikan zonasında müstəqil Koreya Respublikasının əsası qoyulur. Hələ 1919-cu ildə Şanxayda yaradılmış Koreya müvəqqəti hökumətinin banisi və rəhbəri Li Sın Man Koreya Respublikasının ilk prezidenti seçilir. 1948-ci ilin sentyabrın 9-da isə Koreya yarımadasının şimalında, sovet zonasında müstəqil KXDR elan olunur. Kim İr Sen KXDR-nın rəhbəri olur.

1950-ci ilin 25 iyununda 3 il davam edən Koreya müharibəsi başlayır. Müharibəyə səbəb Kim İr Senin bütün Koreyanı öz hakimiyyəti altında birləşdirməyə cəhd etməsi olmuşdur. Bu müharibə eyni zamanda SSRİ və ABŞ arasında gedən Soyuq müharibənin tərkib hissəsi hesab olunur. Bəzən bu konfliktə Soyuq müharibə dövründə ABŞ və onun müttəfiqləri ilə ÇXR və SSRİ qüvvələri arasında baş vermiş gizli müharibə kimi baxılır. Müharibə 1953-cü ilin 27 iyulunda sülh müqaviləsi ilə başa çatdı. Müharibdə qalib tərəf olmadı. Uduzan, itirən isə eyni kökə, dinə və dilə malik xalq oldu. Müharibə zaman yüz minlərlə koreyalı öldürüldü, sağlamlığından məhrum oldu, şəhərlər, kənd və qəsəbələr dağıdıldı.

Müharibədən sonra Cənubi Koreya öz inkişafını qura bildi. Bunun nəticəsində əhalinin sosial-iqtisadi vəziyyəti yaxşılaşdı, texnologiyaların inkişafı ilə yeni iş yerləri, fabrik və zavodlar yaradıldı. Ölkədə genişmiqyaslı quruculuq, abadlıq işləri həyata keçirildi. Şimali Koreyada isə əhalinin yaşayış durumu çox ağırdır. Kim Çen İnin tələb və irəli sürdüyü şüarlar ölkə əhalisi üçün məcburi xarakter daşıyır. Bütün Şimali koreyalıların indi əzbərdən öyrənməli olacaqları yeni şüarlar. Ölkə üzrə şəxsən Kİm Çen İnin tərtib etdiyi 310 şüar mövcuddur. Şüarların əsas xəttini Kim ailəsini şərəfləndirməkdən və evdə göbələk yetişdirməkdən tutmuş, arvadlarına itaət etmək və xarici idmanlardan imtina etməkdən tutmuş gündəlik həyatlarında ehtiyac duyacaqları hər şey var. Şüarlarda ailənin üçüncü nəslinin nümayəndəsi Kim Çen İnin şərəfinə çağırışlara çox yer ayrılıb. Təbii ki, şüarların müəllifləri vətəni düşmənlərdən müdafiə etməyi də unutmayıblar: "Düşmənlər ölkəmizi işğal etməyə cəsarət etsələr, biz onların hamısını son adama qədər məhv edəcəyik!"

Amerika imperializmi və digər çoxsaylı düşmənlərlə mübarizə mövzusu da şüarların məğzini təşkil edir. Şüarlar iki tarixin: hakim Koreya Fəhlə Partiyasının yaradılmasının və Koreya yarımadasının yapon işğalından azad edilməsinin 70 illiyinə həsr olunub.

Son olaraq onu qeyd etmək lazımdır ki, Koreya yarımadasında artan gərginlik yeni müharibə riski yaradır. Hansı ki, bu müharibə digər hazırda davam edən müharibələrdən fərqli ola biləcəyi proqnozlaşdırılır. Çünki döyüş meydanına çıxmağa hazırlaşan tərəflərdən birinin- Şimali Koreyanın nüvə silahı mövcuddur. Bu isə nəinki region üçün, ümumilikdə dünyamız üçün təhlükə yarada bilər. Kim Çen İn nüvə silahının tətbiqinə dair əmr verər ki, bu da qeyd etdiyim kimi, bəşəriyyət üçün dəhşətli fəlakət yarada bilər.

**İLHAM ƏLİYEV**

# Düzgün qidalanma mədəniyyətdir: nə qədər mədəniyik?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*

**"Düzgün qidalanma mədəniyyətdir" ifadəsi sağlam və balanslaşdırılmış qidalanmanın bir insanın və bir cəmiyyətin rifahının əsasını təşkil etməsini ifadə edir. Düzgün qidalanma xəstəliklərin qarşısını almaqla yanaşı həyat keyfiyyətini yaxşılaşdırır, daha estetik görünüşlü, daha məmnun, daha xoşbəxt bir cəmiyyət formalaşdırır. Düzgün qidalanma insanın təkcə fiziki sağlamlığını qorumur, həm də psixi sağlamlığına müsbət təsir edir, enerji səviyyəsini artırır və immunitet sistemini gücləndirir.**







Sağlamlığımızı qorumaq və həyat keyfiyyətimizi yaxşılaşdırmağın ən əsas yollarından biri balanslaşdırılmış qidalanmanı həyat tərzimizə çevirməkdir. Balanslaşdırılmış qida qəbulu bədənin ehtiyac duyduğu bütün qidaları lazımi miqdarda və çeşiddə istehlak etmək deməkdir. Tarazlığı qorumaq sağlamlığımızı vacib bilmək, mənşəyi məlum olmayan qidaları yeməmək, dolayısı ilə daha gümrah bir bədənə sahib olmaq deməkdir.

Məşhur bir el məsəli var, yemək üçün yaşama, yaşamaq üçün ye. Bu məsəl insanın həyata baxışını, yaşam standartını, sağlamlığını ifadə edir əslində. Salam qidalanma, insanın həyatına davam etməsi və sağlamlığını qorumaq üçün orqanizminə lazım olan qidaları qəbul etməsidir. Qidalar bizi ehtiyac duyduğumuz enerji ilə təmin edir, böyüməni dəstəkləyir, toxumaların bərpasını təşviq edir və bədən funksiyalarının düzgün işləməsinə kömək edir. Gündəlik həyatımızda sərf olunan enerjini əvəz etmək üçün qidalanma çox vacibdir. Sağlam, balanslaşdırılmış qida maddələrinin istehlakını, bədənin ehtiyaclarını ödəməyi və sağlamlığın qorunmasını təmin edir.

Balanslı qidalanma, bədənin ehtiyac duyduğu bütün qidaları lazımi miqdarda və çeşiddə istehlak edərək sağlamlığı qorumaq üçün hazırlanmış bir qidalanma planıdır. Sağlam pəhriz bədən funksiyalarının düzgün işləməsini təmin edir, bizi xəstəliklərdən qoruyur və ümumi həyat keyfiyyətimizi yaxşılaşdırır. Bütün orqanizmimizin qüsursuz işləməsi üçün bizə həm zülal, həm karbohidrat, həm də mineral və vitaminlər lazımdır.

Zülal bədənimizin regenerasiyası, böyümə prosesləri üçün vacibdir, zülal ət, toyuq, balıq, süd məhsulları, yumurta, paxlalılar, qoz-fındıq kimi mənbələrdən alınmalıdır. Karbohidratlar enerji verən əsas qida qrupudur. Dənli bitkilər, tərəvəzlər, meyvələr və paxlalılar zəngin karbohidrat mənbəyidir. Enerji mənbəyi olan yağlar isə kalori qəbulunuzun bir hissəsi olmalıdır, sağlam yağlar avokado, zeytun yağı, balıq və qoz-fındıqda olur.



Bədən funksiyalarının düzgün işləməsi üçün lazım olan vitamin və minerallar meyvə, tərəvəz, süd məhsulları və digər qidalarda olur. Həzm sistemini dəstəkləyən və toxluq hissi yaradan lif isə bütün taxıl növlərində, tərəvəzlərdə, meyvələrdə və paxlalılarda olur. Bədənin nəm balansını qorumaq üçün kifayət qədər su içmək vacibdir. Bundan əlavə, süd, təbii meyvə şirələri, bitki çayları kimi sağlam içkilər də istehlak edilməlidir.

Balanslaşdırılmış qidalanma tək nəyi yemək məsələsi deyil, gündəlik yemək vərdişlərinin uğurlu nəticəsidir. Əgər balanslı qidalansanız enerji səviyyəniz qorunar, immunitet sisteminiz güclənər, ürək-damar sağlamlığınızı qorumuş, bədən çəkisini nəzərətdə saxlamış, həzm sisteminiz tənzimlənmiş, zehni fəaliyyətiniz yaxşılaşmış və bəzi xroniki xəstəliklərdən qorunmuş olarsınız.

Balanslaşdırılmış qidalanmanın təməlini müxtəliflik təşkil edir. Fərqli qida qruplarından geniş çeşiddə qidalar istehlak etmək lazımdır. Bu, bədənin bütün lazımi qidalarla təmin olunması deməkdir. Gündəlik pəhrizinizə protein mənbələri, dənli bitkilər, tərəvəzlər, meyvələr, sağlam yağlar, süd məhsulları və qoz-fındıq kimi müxtəlif qidaları daxil edin.

Qida qruplarının balanslaşdırılması da vacib məsələdir. Hər bir qida qrupundan adekvat miqdarda qida əldə etmək vacibdir. Zülal, karbohidratlar, yağlar, vitaminlər və minerallar olan müxtəlif qidaları balanslaşdırdığınızdan əmin olun. Məsələn, karbohidratlara zülal və sağlam yağları ehtiva edən bir yemək də əlavə edərək qida qruplarını balanslaşdıra bilərsiniz.

Norma və ölçülərə nəzarət vacibdir, bu lazımsız kalori qəbulunun qarşısını alır. Qidaların uyğun porsiyalarda istehlakı həddindən artıq yeməyin qarşısını alır və bədən çəkisini nəzarətdə saxlamağa kömək edir. Müxtəlif rəngli meyvə və tərəvəzlərin istehlakı müxtəlif vitamin və mineral qəbulu deməkdir. Ümumiyyətlə, rəngli qidalar yüksək qida dəyərinə malikdir.

Liflə zəngin qidalar - dənli bitkilər, tərəvəzlər, meyvələr və paxlalılar kimi liflə zəngin qidaların istehlakı həzm sistemini dəstəkləyir, toxluq hissini artırır və qəbizlik kimi problemlərin qarşısını alır. Doymamış yağlar, məsələn, zeytun yağı, saf günəbaxan yağı sağlam bir pəhriz üçün vacibdir. Trans yağlar və doymuş yağlar məhdud miqdarda istehlak edilməlidir və mümkün olduğu qədər qida rasionundan çıxarılmalıdır.



Yetərli miqdarda su içmək orqanizm funksiyalarının düzgün işləməsini təmin edir. Susuzluq hiss etmədən də su içməyə çalışın. Şəkərli qəlyanaltıların və işlənmiş qidaların istehlakını məhdudlaşdırmaq sağlam qidalanmaının ayrılmaz hissəsidir.

Davamlı olaraq pəhrizdə olanların, zəif qidalananların orqanizminin enerji ehtiyacı ödənmir. Bu da zəiflik, yorğunluq, halsızlıq kimi problemlər yaradır. Balanssız qidalanma bədənin əsas qida maddələrindən məhrum qalması deməkdir. Vitamin, mineral və protein çatışmazlığı sağlamlıq problemlərinə və xəstəliklərə səbəb ola bilər.

Qeyri-adekvat və balanssız qidalanma, xüsusilə uşaqlıq dövründə böyümə və inkişafa mənfi təsir göstərir. İnkişaf gecikmələri, əzələ və sümük ilə bağlı problemlər yarana bilər. Qeyri-kafi zülal qəbulu əzələ toxumasının itkisinə səbəb olur, nəticədə halsızlıq yaranır. Dəmir çatışmazlığı qidalanmadan qaynaqlanan ümumi bir problemdir və anemiyaya səbəb olur. Buna görə də balanslaşdırılmış qidalanma əhəmiyyətli hesab edilməli, nə yediyinə diqqət etmək lazımdır. Unutmayın, qidalanma da bir mədəniyyətdir və həm psixoloji, həm də fiziki sağlamlığımız o mədəniyyətin nəticəsidir.

***Lalə Mehralı***



SON SƏHİFƏ
SƏS
27 avqust
2025-ci il

# Çin dünyada ən böyük günəş elektrik stansiyasını tikir



Çin rəsmiləri Tibet yaylasında dünyada ən böyük günəş elektrik stansiyası olacağı layihəni təqdim ediblər. Obyekt 610 kvadratkilometr sahəni əhatə edir. Bu, ölkədə iqlim məqsədlərinin nail olunmasına yönəlmiş günəş enerjisinin sürətli genişləndirilməsinin bir hissəsidir.
SİA xarici mətbuata istinadla xəbər verir ki, bu günlərdə dərc olunmuş araşdırmaya əsasən, Çinin karbon emissiyaları ilin birinci yarısında 1 faiz azalaraq 2024-cü ilin mart ayından bəri müşahidə olunan tendensiyanı davam etdirib. Bu azalma emissiyaların 2030-cu ilə qədər müəyyən edilmiş planlaşdırılmış müddətdən əvvəl pik həddinə çatdığından xəbər verə bilər. Lakin ekspertlər Çinin 2060-cı ilə qədər karbon neytrallığını təmin etmək üçün daha kəskin azalmanın zəruriliyinin olduğunu bildirirlər.

Ölkənin üzləşdiyi əsas problemlərdən biri yaşıl enerjinin ölkənin bütün ərazisində sənaye ehtiyacları ilə paylanmasının uyğunlaşdırılmasıdır. Çin strategiyasının çərçivəsində bərpaolunan enerji mənbələrinin fəal şəkildə inkişafı müşahidə olunur ki, bu qlobal iqlim dəyişikliyi ilə mübarizəyə dair geniş kontekstə daxildir. Genişmiqyaslı günəş layihələrinin həyata keçirilməsi təkcə ölkədə karbon izinin azaldılmasına deyil, həm də qazıntı enerji mənbələrindən asılılığın aradan qaldırılmasına xidmət edir.

2025-ci il iyul 1-də çəkilmiş bir fotoşəkil Tibet qoyunlarının Tsinhay əyalətinin Haytszüan qəzasında günəş elektrik stansiyasının yaxınlığında otladığını göstərir. Heyvandarlıq və yeni texnologiyalar arasındakı bu vizual kontrast bölgənin ekosistemlərində baş verən dəyişiklikləri vurğulayır.

Çinin günəş enerjisinin inkişaf etdirilməsi üzərində fəal şəkildə çalışarkən, onun karbon neytrallığına səyi ekoloji məqsədlər və sənaye tələbləri arasında zəruri balansla bağlı problemlərlə üzləşir. Beləliklə, Çinin enerji siyasətinin gələcəyi təkcə bərpaolunan mənbələr sahəsində layihələrin uğurluluğu ilə deyil, həm də ümumi iqlim məqsədlərinə nail olunması üçün müxtəlif sektorları uyğunlaşdırmaq bacarığı ilə müəyyən ediləcək.

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Nicolas Keyc rol üçün danışıqlar aparır...

*Süjetin təfərrüatları gizli saxlanılır...*



Nicolas Keyc məşhur HBO serialının "True Detective"in ("Əsl detektiv") beşinci mövsümündə çəkilmək üçün danışıqlar aparır.
SİA-nın əldə etdiyi məlumata görə, bu barədə Variety bildirir.
Keydj antologiyaya qoşulan ən son ulduz olacaq.
Bu illər ərzində serialda Metyu Makkonahi, Vudi Harrelson, Kolin Farrell, Reyçel Makadams, Maherşala Əli və Codi Foster çəkiliblər.
"Gecə ölkəsi" adlı dördüncü mövsüm şounun bütün platformalarda izlədiyi 12,7 milyon tamaşaçı ilə şou tarixində ən populyar oldu.
Nikolas Keyc öz nəslinin ən məşhur aktyorlarından biridir, "Las-Veqası tərk etmək" filminə görə "Oskar" mükafatı laureatı və "Uyğunlaşma" üçün namizəddir.
Onun ikonik əsərlərinə Face/Off, Ghost Rider və National Treasure daxildir.
HBO Keycin mümkün iştirakı ilə bağlı şərh verməyib. Kanalla eksklüziv müqavilə imzalayan İssa Lopez növbəti dəfə yeni mövsümdə şoumen kimi fəaliyyət göstərəcək.

***Nazlı Almuradova***

# Ukrayna yığmasının Azərbaycana qarşı keçirəcəyi oyun üçün heyəti

Ukrayna yığmasının DÇ-2026-nın seçmə mərhələsində Fransa və Azərbaycan yığmalarına qarşı keçirəcəyi oyunlar üçün heyəti açıqlanıb. SİA xəbər verir ki, baş məşqçi Sergey Rebrov D qrupu çərçivəsində sentyabrın 5-də Vrotslavda Fransa, 9-da isə Bakıda Azərbaycan millisinə qarşı baş tutacaq matçlara 25 futbolçu dəvət edib.




Qapıçılar: Andrey Lunin ("Real", İspaniya), Anatoli Trubin ("Benfika", Portuqaliya), Dmitro Rıjnik ("Şaxtyor")
Müdafiəçilər: İlya Zabarnı (PSJ, Fransa), Aleksandr Svatok ("Ostin", ABŞ), Valeri Bondar, Mikola Matvienko, Yuxim Konoplya (hamısı "Şaxtyor"), Taras Mixavko, Aleksandr Timçik (hər ikisi "Dinamo"), Vitali Mikolenko ("Everton", İngiltərə)
Yarımmüdafiəçilər: Aleksandr Zinçenko ("Arsenal", İngiltərə), Yeqor Yarmolyuk ("Brentford", İngiltərə), İvan Kalyujnı ("Metallist 1925"), Mikola Şaparenko ("Dinamo"), Oleq Oçeretko, Georgi Sudakov, Artyom Bondarenko (hamısı "Şaxtyor"), Aleksey Qutsulyak, Aleksandr Nazarenko (hər ikisi "Polissye"), Viktor Tsiqankov ("Jirona", İspaniya), Aleksandr Zubkov ("Trabzonspor", Türkiyə)
Hücumçular: Roman Yaremçuk ("Olimpiakos", Yunanıstan), Artyom Dovbik ("Roma", İtaliya), Vladislav Vanat ("Dinamo")
Ehtiyat heyət: Georgi Buşan ("Əl-Şabab", Səudiyyə Ərəbistanı), Boqdan Mixayliçenko ("Polissya"), Yevgeni Çeberko ("Kolambus Kryu", ABŞ), Aleksandr Pixalonok, Vladimir Brajko, Nazar Voloşin (hamısı "Dinamo").
Qeyd edək ki, Azərbaycan - Ukrayna qarşılaşması sentyabrın 9-da, saat 20:00-da Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 3000